Günəş Şərqdən doğur!

№ 87 (5368), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 20 may 2021-ci il (cümə axşamı)



## Operativ qərargah indi cəmiyyətin səsini eşitməlidir

Artıq açıq havada maskaları atmağın zamanıdır

(Səh.4)

**Günün içindən...**



### Azərbaycanda terror təhlükəsi riski mövcud deyil

DTX: Məlumatlar həqiqəti əks etdirmir və tamamilə əsassızdır

Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinin rəsmi internet səhifəsində ABŞ vətəndaşlarına Azərbaycanda COVID-19 koronavirus infeksiyası və yüksək terror təhlükəsi riski ilə əlaqədar məlumat verilib, onlara ciddi zərurət olmadığı təqdirdə ölkəmizə səyahət etmələri tövsiyə olunub.

(səh.8)

### Rusiya Ermənistana təzyiq etsə Zəngəzur dəhlizi açılacaq



"Bizi narahat edən məsələ ondan ibarətdir ki, dəhlizin giriş-çıxışında rus hərbçiləri duracaq"

(səh.6)

# Sərhəddəki vəziyyət müzakirə olundu



## Liderlər bildirib ki, nizamlama yalnız siyasi-diplomatik metodlarla aparılmalıdır

**Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin telefon söhbəti olub.**

Bu barədə Prezidentin Mətbuat xidməti məlumat yayıb.

(səh.2)



# Ən ehtiyatlı zaman gəldi

Sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı Rusiyanın vasitəçilik təklifi ağır nəticələr verə bilər

(səh.7)

- **Heydər Əliyev Fondu Mirmahmud Mirəlioğlunun müalicəsini öz üzərinə götürüb** (səh.2)
- **Cənubi Qafqazda kommunikasiyaların açılması vacibdir**
  Paşinyan deyib ki, bu halda Ermənistanın İran və Rusiya ilə əlaqəsi yaranacaq (səh.4)
- **Deputat gündəmə gəlmək istəyib**
  "Sözügedən status, çox güman, məqsədli şəkildə yazılıb" (səh.5)
- **Yoluxanların sayı azaldı**
  339 yeni yoluxma faktı qeydə alınıb, 12 nəfər vəfat edib (səh.4)

# Sərhəddəki vəziyyət müzakirə olundu

## Liderlər bildirib ki, nizamlama yalnız siyasi-diplomatik metodlarla aparılmalıdır



**Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin telefon söhbəti olub.**

Bu barədə Prezidentin Mətbuat xidməti məlumat yayıb.

2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların hərfi və ruhuna tam uyğun olaraq təhlükəsizliyin və sabitliyin təmin edilməsi üzrə praktiki vəzifələrin həlli vurğulanmaqla regionda münaqişədən sonrakı vəziyyətlə bağlı məsələlər müzakirə edilib.

Bu kontekstdə Azərbaycan-Ermənistan sərhədində bu yaxınlarda baş vermiş hadisələrə diqqət yetirilib. Azərbaycan və Rusiya prezidentlərinin ümumi fikrinə görə nizamlama yalnız siyasi-diplomatik metodlarla aparılmalıdır. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin qeyd edib ki, Rusiya tərəfi vasitəçilik səylərini və Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası prosesinin başlanması barədə razılıq əldə edilməsinə yönəlmiş konsultativ köməklik göstərməyi davam etdirəcək.

İkitərəfli gündəliyin mühüm aspektlərinə dair fikir mübadiləsi də aparılıb. Prezident İlham Əliyev Rusiya vaksinlərinin göndərilməsinə görə səmimi minnətdarlığını ifadə edib. Bütün istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsində hər iki tərəfin maraqlı olduğu bildirilib. Hökumətlər, müvafiq nazirliklər və idarələr xətti ilə intensiv təmaslar buna yönəldiləcək.

## "...Əlimizdədir"

### Ərdoğan: "FETÖ terror təşkilatından çox önəmli bir ismin adını açıqlayacağıq"



**"Yaxınlarda FETÖ terror təşkilatından çox önəmli bir ismin adını açıqlayacağıq. Hazırda əlimizdədir".**

APA-nın yerli bürosunun xəbərinə görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan 19 May Atatürkü anma, Gənclik və İdman bayramı ilə əlaqədar gənclərlə görüşündə onların suallarını cavablandırarkən bildirib.

Türkiyənin terrorla mübarizəsində Nurəddin Sofi deyilən bir qatili qətlə yetirilməsi ilə bağlı bu günlərdə xəbəri açıqladığını vurğulayan R.T.Ərdoğan deyib ki, bu mübarizə çərçivəsində çox qatillər, terrorçular qətlə yetirilib: "Hazırda hədəfimiz Qəndildir, Qəndili çökürdəcəyik".

## Ağdamda 3 177 hektar əkin sahəsi minalardan təmizlənib



**İşğaldan azad edilən ərazilərin minalardan təmizlənməsi prosesi davam etdirilir.**

Ağdam rayon İcra Hakimiyyətindən verilən məlumata görə, artıq rayon ərazisində 3177 hektar əkin sahəsi mina və partlamamış sursatlardan təmizlənib. Təmizlənmiş ərazilərin 2195 hektarına buğda əkilib.

*Hazırda əkin sahələrinin təmizlənməsi davam etdirilir.*

## Heydər Əliyev Fondu Mirmahmud Mirəlioğlunun müalicəsini öz üzərinə götürüb



**Koronavirusa yoluxan Klasssik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlunun müalicəsini Heydər Əliyev Fondu öz üzərinə götürüb.**

Partiya sədrinin vəziyyətinin yaxşı olmadığı barədə dostları paylaşım etmişdi.

Eyni zamanda, onun ailə üzvlərinin də virusdan əziyyət çəkdiyi qeyd olunurdu.

## Fransa Senatının üzvü Azərbaycana səfər edəcək

**Fransa Senatının üzvü, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü Natali Qule sabah Azərbaycana səfər edəcək.**

Bunu Trend-ə Nizami Gəncəvi Beynəlxalq Mərkəzindən deyiblər.

Qeyd olunub ki, mayın 24-nə kimi davam edəcək səfər çərçivəsində fransalı senator Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə də gedəcək.

Bundan başqa, N.Qule Mərkəzdə Qarabağdakı vəziyyət və digər məsələlərlə bağlı müzakirələrdə iştirak edəcək.

## Paşinyan KTMT-dən narazılığını bildirdi

**Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Ermənistanın müraciətinə reaksiyası Yerevan üçün arzuolunan sürətdə deyil.**

Trend-in erməni KİV-lərinə istinadən məlumatına görə, bunu Ermənistanın baş nazir vəzifələrini icra edən Nikol Paşinyan hökumətin iclasında deyib.

O bildirib ki, bununla belə, müvafiq məsləhətləşmələr davam edir.

# Rusiya Xankəndidə ermənilərə nəzarətini azaldıb

## İstənilən halda Rusiya və Fransanın olduğu yerdə Türkiyə də olmalıdır



**Dünən Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramovla türkiyəli həmkarı Mövlud Çavuşoğlu arasında telefon danışığı baş tutub. Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) məlumat yayıb.**

Nazirlər bölgədəki cari vəziyyəti, o cümlədən Azərbaycan-Ermənistan sərhədində baş verən gərginliklə bağlı məsələləri müzakirə ediblər.

Telefon danışığı zamanı tərəflər, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi, Fələstində baş verənlər ilə bağlı fikir mübadiləsi aparıblar.

**Telefon danışığını "Şərq"ə şərh edən siyasi analitik Turab Rzayev bildirib ki, Qarabağ münaqişəsi sadəcə Qarabağdan ibarət deyil.**

Onun sözlərinə görə, bu məsələ çox geniş və beynəlxalq siyasətin atributuna çevrilib: "Məlumdur ki, Ermənistan-Azərbaycan arasında delimitasiya problemi var. Bu problemə görə vəziyyət gərgindir. Məsələ ilə bağlı Rusiya XİN başçısı Sergey Lavrov Bakıya gəlib, KTMT öz münasibətini bildirib. Lavrov dünən həmçinin Tacikistan prezidenti ilə danışıb. Daha sonra Rusiya Azərbaycan və Ermənistana təklif edib ki, məsələyə dair ortaq komissiya yaradılsın. ABŞ isə hər iki ölkə ilə birbaşa görüşməyə çalışır. Burada yanaşma fərqi var: Rusiya özü məsələyə müdaxilə etmək, Amerika isə birbaşa Azərbaycan və Ermənistanın problemi həll etməsini istəyir. Fransa isə Ermənistanı dəstəkləyir və Azərbaycanı kəskin ittiham edir. Rusiya delimitasiya məsələsində çox da anti-Azərbaycan mövqe sərgiləmir. Amma istənilən halda Rusiya və Fransanın olduğu yerdə Türkiyə də olmalıdır. Ona görə də danışıq zamanı bu məsələlər müzakirə olunub.

Eyni zamanda Qarabağ və "İsgəndər M" raketi ilə bağlı mövzu gündəmə gətirilsə də, yarımçıq qalıb. Lavrovun Bakıya gəlişi zamanı nələr razılaşdırıldığını bilmirik. Sülhməramlılarının hüquqları da vacibdir. Qarabağın sülhməramlıların nəzarətində olan hissəsi ixtiyarımıza keçəcəkmi? Bununla bağlı istəklərimiz var. İstəyirik ki, sülhməramlılar olan ərazidə Azərbaycanın tam nəzarəti olsun. Türkiyə də bunu istəyir, Rusiya isə mümkün qədər mane olmağa çalışır. Əlbəttə ki, Ermənistan da buna razı deyil".

**T.Rzayev qeyd edib ki, Rusiya faktiki olaraq Xankəndidə ermənilərə nəzarətini azaldıb:** "Azərbaycan isə Xankəndiyə tam nəzarəti öz üzərinə götürmək istəyir. Fransadan olsa, Qarabağı müstəqil dövlət kimi tanıyar ki, Azərbaycan ermənilərə nəzarət edə bilməsin. ABŞ erməni lobbisinin təsiri ilə müəyyən bəyanat versə, əslində neytral və hər iki ölkəni barışığa çağıran addım atır. Məncə də ən yaxşısı bu olardı. Yəni bundan sonra Azərbaycan hakimiyyətinin Ermənistanla bir təmas xətti olsa, məsələ birbaşa həllini tapar. Bir sözlə, çoxtərəfli faktlar və münasibətlər var. Düşünürəm ki, nazirlərin söhbətində bu kimi məsələlər müzakirə olunub".

**Yeganə Bayramova**

# Azərbaycan hərbçilərinin mövqeyində dəyişiklik yoxdur



Amma nədənsə, “5-ci kolon”un ənənəvi təmsilçiləri düşmənin belə etiraf etdiyi reallıqları həzm edə bilmirlər

"Ermənilər Qaragöl məsələsində türklərin (azərbaycanlıların) istədiklərinə nail olduqlarını deyirlər. Məsələn, sabiq baş nazir Qrant Baqramyanın sözlərinə görə, bütün yüksəkliklər Azərbaycanın nəzarətindədir".

**Bunu siyasi şərhçi, BAXCP sədrinin müavini Elçin Mirzəbəyli deyib. Politoloq bildirib ki, Ermənistan baş nazirinin səlahiyyətlərini icra edən Nikol Paşinyan da Təhlükəsizlik Şurasının iclasında əsas diqqəti ölkə daxilindəki proseslərə yönəldib:** ”Qrant Baqramyandan fərqli olaraq, Nikol Paşinyan Azərbaycan hərbçilərinin mövqelərində hər hansı bir dəyişikliyin baş vermədiyini vurğulayıb və yenidən baş verənləri Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) müstəvisinə çəkmək istəyib. Burada da onun məqsədi KTMT-nin, dolayısıyla isə Rusiyanın Ermənistanın təhlükəsizliyinə təminat verə bilmədiyini ictimai rəyə çatdırmaqdır. Paşinyanın maraq doğuran iddialarından biri də sərhədlə bağlı məsələnin üçtərəfli formatda, yəni Rusiyanın iştirakı ilə tənzimlənməsidir. Nikol öz iddialarını əsaslandırmaq üçün Ermənistanla Azərbaycan arasında birbaşa əlaqənin olmadığını bildirir və 10 noyabr 2020-ci il bəyanatına istinad edir. 10 noyabr bəyanatında isə sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı heç nə yoxdur. Bu baxımdan da prosesdə üçüncü tərəfin iştirakı hüquqi baxımdan mümkün deyil”.

**E.Mirzəbəyli vurğulayıb ki, Ermənistanın Kut qəsəbəsinin meri Sima Çitçiyan ölkə mətbuatına açıqlamasında azərbaycanlıların öz əvvəlki mövqelərində qaldığını bildirib:** ”Sünikin (Zəngəzur) sabiq qubernatoru, Robert Koçaryanın yeni müttəfiqi Vaqe Akopyan da Ermənistan mətbuatına açıqlamasında azərbaycanlıların mövqelərində hər hansı bir dəyişikliyin olmadığını deyib. Tamamilə fərqli siyasi baxışlara malik olan erməni siyasətçilərinin açıqlamalarından bəlli olur ki, Azərbaycan öz ədalətli mövqeyindən bir addım da geri çəkilməyib. Amma nədənsə, ”5-ci kolon”un ənənəvi təmsilçiləri və onların ”ekspertləri” düşmənin belə etiraf etdiyi reallıqları həzm edə bilmirlər”.

**İsmayıl**

## Regionda yeni nəqliyyat erası başlayıb

### Əli Əsədovun Moskvaya səfəri daha çox iqtisadi məsələlərlə bağlıdır



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasına rəsmi səfərə gedib. Bu barədə Nazirlər Kabineti məlumat yayıb.**

Bildirilib ki, mayın 20-də Baş nazirin və nümayəndə heyətinin Rusiya Federasiyası Hökumətinin sədri M.V.Mişustinlə və RF hökumətinin üzvləri ilə görüşü keçiriləcək. Əlbəttə, müzakirələrin məhz indiki məqamda - Azərbaycanın öz haqq savaşını uğurla davam etdirdiyi, sərhədlərini müəyyənləşdirdiyi bir vaxtda bərpası heç də təsadüfi deyil.

**Bakı Politoloqlar Klubunun rəhbəri, siyasi elmlər namizədi Zaur Məmmədov səfər barədə ”Şərq”ə danışıb:** ”Əslində bu, gözlənilən idi. Rusiya Xarici işlər naziri Sergey Lavrovun Bakıya səfəri zamanı bunun anonsu verilmişdi. Ümumiyyətlə, post-müharibə dövründə Azərbaycan, Rusiya və Ermənistan müxtəlif üçtərəfli müzakirələrin getdiyini görürük.

Bir çox məsələlər, o cümlədən iqtisadi əməkdaşlıq və nəqliyyat dəhlizi barədə fikir mübadiləsi aparılır. Artıq regionda yeni geosiyasi və nəqliyyat erası başlayıb. Təkcə regionun deyil, həm də Avrasiyanın nəqliyyat strukturuna təsir edəcək addımlar atılır.

Fikrimcə, Azərbaycan və Rusiya arasında iqtisadi, xüsusilə, kənd təsərrüfatı sahəsində əlaqələrin yenidən nəzərdən keçirilməsinə ehtiyac var. Hər halda Azərbaycan və Rusiya liderləri qarşılıqlı ticarət dövriyyəsinin artırılmasını qarşıya məqsəd qoyublar.

Hazırkı münasibətlər bunun üçün tam münasibdir. Təkrarlayıram, yeni qarşılıqlı layihələr həyata keçirilməlidir”.

**Kənan**

## Üçtərəfli bəyanatın şərtlərinin yerinə yetirilməsi ən məqbul variantdır



## KTMT Qarabağda münaqişənin alovlanmasında maraqlı deyil

KTMT-nin xarici işlər nazirləri Tacikistanın paytaxtı Düşənbədə keçirilən iclasda Ermənistan-Azərbaycan sərhədində baş verənləri müzakirə ediblər. Təşkilatın baş katibi Stanislav Zas iclasdan sonra verdiyi açıqlamada bildirib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Ermənistanın Sünik, yəni Zəngəzur bölgəsindəki vəziyyətin inkişafını yaxından izləyir.

Zas qeyd edib ki, baş verənləri narahatlıqla müşahidə edirlər. KTMT baş katibi həmçinin onu da əlavə edib ki, ”10 noyabr 2020-ci il tarixli üçtərəfli razılaşmaların həyata keçirilməsinin başqa variantı yoxdur.

**”Atlas” Araşdırmalar Mərkəzinin eskperti Samir Hümbətov ”Şərq”ə bildirib ki, KTMT baş katibinin sözlərindən belə qənaətə gəlmək olar ki, Ermənistanın bütün cəhdlərinə baxmayaraq, təşkilat münaqişənin miqyasının böyüməsində maraqlı deyil:** ”Ona görə də 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatın şərtlərinin yerinə yetirilməsinin daha məqbul variant olduğunu qəbul edir. Onun fikirlərində aydın olan digər məsələ isə təşkilata daxil olan dövlətlərin Azərbaycanla sərhədlərin dəqiqləşdirilməsi məsələsində Ermənistana dəstək verməkdən imtina edir. Ermənistanı məcbur edirlər ki, məsələnin beynəlxalq hüquq prinsipləri çərçivəsində həll edilməsinə şərait yaratsın. Nəhayət, təşkilatın baş katibinin açıqlamasından o da aydın olur ki, Ermənistanın ərazi bütövlüyünə qarşı hər hansı təcavüz qeydə alınarsa, ona reaksiya verə bilərlər, əks təqdirdə Ermənistana dəstək verilməsi mümkün görünmür”.

**İsmayıl**

# Vəziyyəti gərginləşdirən Ermənistan tərəfidir

## “Azərbaycan yalnız beynəlxalq səviyyədə tanınmış sərhədlərini bərpa edir”



**“Azərbaycan öz sərhədlərinin bərpası və sərhəd müdafiə sistemini gücləndirmək istiqamətində konkret addımlar atır. Bu, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipinə, o cümlədən beynəlxalq hüquq normalarına zidd deyil. Burada hər hansı başqa məqam axtarmaq siyasi təxribat və ikili standartlar əsasında selektiv yanaşma nümayiş etdirməkdir”.**

*Bu fikirləri ”Şərq”ə açıqlamasında politoloq Nurlan Qələndərli deyib.* Politoloq bildirib ki, Ermənistan bu zamana qədər müxtəlif məsələlərlə əlaqədar manipulyativ və təxribatçı yanaşma nümayiş etdirib: ”İstər keçmiş münaqişə, istər İkinci Qarabağ müharibəsi dövründə, istərsə də postkonflikt mərhələsində də bu reallığın şahidi olmuşuq. Zəngəzur dəhlizinin açılması ilə bağlı manipulyativ açıqlamaların verilməsi, minalanmış ərazilərin xəritələrinin təqdim olunmaması, keçmiş münaqişənin din kontekstində və sivilizasiyaların qarşıdurması fonunda təqdim olunmasına cəhd göstərilməsi və digər məqamlar bu baxımdan xüsusi qeyd edilməlidir. Təbii ki, bütün bunlar uğursuz gedişlərdir və heç bir nəticə verməyib, verməyəcək”.

*N.Qələndərli əlavə edib ki, sərhədlərin delimitasiyası və demarkasiyasının regionda dayanıqlı sülhün və etibarlı təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir:* ”Ermənistanın məsələni beynəlmiləlləşdirməyə çalışması absurd yanaşma və uğursuz cəhddir. Beynəlxalq ictimaiyyətə də yaxşı məlumdur ki, Azərbaycan yalnız beynəlxalq səviyyədə tanınmış sərhədlərini bərpa edir və özünün ərazi bütövlüyü çərçivəsində həyata keçirilən sərhəd mühafizə sisteminin gücləndirilməsi işi aparır. Ermənistan vəziyyəti gərginləşdirməyə və məsələnin mahiyyətini - reallıqları təhrif etməyə yönəlmiş addımlardan çəkinməlidir”.

**Aynurə Pənahqızı**

# İranlı deputat əndazəni aşdı

## “Müctəba Zolnurinin son bəyanatı təcavüzkar Ermənistana açıq rəğbətin və dəstəyin təzahürüdür”

İran parlamentinin Milli təhlükəsizlik və xarici siyasət komissiyasının sədri Müctəba Zolnuri Azərbaycan-Ermənistan sərhədlərinin müəyyənləşməsi ilə bağlı qərəzli açıqlamalar verib. Zolnuri iki ölkə arasında hansısa sərhəd dəyişikliyinin yolverilməz olduğunu, Tehranın buna imkan verməyəcəyini söyləyib:





**“Biz Ermənistanla necə danışmaq lazım olduğunu gözəl bilirik. Bu sahədə məsləhətə ehtiyac duymuruq”**

”İranın mövqeyi çox açıq-aydın və qətiyyətlidir. Bölgədəki hər hansı bir dəyişikliyi qəbul etmirik, bölgə ölkələrinin ərazi bütövlüyü qorunmalıdır, sərhədlərimiz yaxınlığında bölgədən kənar bir güc qəbul etmirik. Ermənistan ərazilərinin bir hissəsini almaq bizim üçün məqbul deyil. Keçmişin sərhədləri tamamilə qorunmalıdır”.

Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiya və demarkasiyası beynəlxalq qanunun tələblərinə əsasən həyata keçirilir. Belə məqamda qonşu ölkənin müəyyən rəsmi şəxslərinin regiondakı reallıqlara əsassız yanaşması qəbuledilməzdir. Əslində bizim də məqsədimiz iranlı deputatın dediyi kimi ”keçmiş sərhədlərin” bərpasıdır. Bəzi İran rəsmiləri nədənsə anlamaq istəmirlər ki, Azərbaycan hansısa ölkənin ərazisinə iddia etmir və yalnız beynəlxalq hüquqla tanınmış sərhədlərinin bərpasına çalışır. Sərhədlərin dəqiqləşdirilməsi İran daxil olmaqla heç bir ölkənin maraqlarına toxunmur. Əfsuslar olsun ki, Müctəba Zolnurinin son bəyanatı isə təcavüzkar Ermənistana açıq rəğbətin və dəstəyin təzahürüdür.

**Millət vəkili, MCP sədri Razi Nurullayev bildirib ki, Zolnurinin Azərbaycan-Ermənistan sərhədində baş verən son olaylardan dolayı səsləndirdiyi fikirlər Azərbaycana qarşı təhdid və şantajdır.** Deputatın sözlərinə görə, əgər Azərbaycan öz sərhədlərini bərpa etmək üçün lap 30 km Ermənistanın içərilərinə doğru irəliləyərsə, bunu dəstəkləyirik: ”Bizim heç kimin torpağında gözümüz yoxdur, amma bizə aid olanları da heç kimə vermək fikrində deyilik. Azərbaycan öz sərhədlərini bərpa etmək üçün hərb dili ilə də danışmağa hazır ölkədir və bunu əməldə sübut edib. Zəngəzur da tarixi yurdumuzdur və ora dönəcəyik, sadəcə, geci-tezi var. Çox təəccüblüdür ki, necə olub ki, cənab deputat 30 il 130 km sərhədin dəyişdirilməsinə, Azərbaycanın beynəlxalq hüquqla tanınan sərhədlərinin pozulmasına tab gətirə bilib? Əgər sərhədlərin qorunmasında bu qədər israrlıdırsa, 30 il ərzində cənab deputatın gözünə yuxu getməməliydi. Biz Ermənistanla necə danışmaq lazım olduğunu gözəl bilirik. Bu sahədə məsləhətə ehtiyac duymuruq”.

**İlahiyyatçı-yazar, Tural İrfan da ”Şərq”ə vurğulayıb ki, İran parlamentinin Komitə sədrinin Azərbaycana qarşı səsləndirdiyi fikirlər qonşuluq dəyərlərinə ziddir.** Onun sözlərinə görə, son olaylarla bağlı iranlı deputatın sərgilədəyi mövqe islami prinsiplərin də əksinədir: ”Ermənistan illərlə islamı, dini abidələri, məscidləri təhqir edib. Ona qarşı səsini çıxarmayan adamlar indi Azərbaycan əleyhinə danışmaq üçün sıraya düzülüblər. Ermənistanı və erməniləri onlardan daha çox müdafiə etmək, özü də haqsız qahmar çıxmaq müsəlmanlıqla, islamla daban-dabana ziddir. Çünki ermənilərin islami dəyərlərə və insanlığa vurduqları zərbə dünyaya məlumdur. Quranda Allah-təala buyurur ki, ”iman gətirənlər qardaşdır”. Deyilmir ki, ”İranla Ermənistan qardaşdır”. Yəni səhv salmaq lazım deyil. İslama iman gətirənlər etibarlı qardaş olmalıdırlar, xəyanətkar deyil. İmam Əli buyurur ki, zalım, zalıma yardım edən və zülmə susan - bunların hər üçü günaha ortaqdır. Azərbaycan Respublikası üçün zalım terrorçu Ermənistandır. İmam Əlinin yolunu getdiyini iddia edənlər daha vicdanlı düşünməlidirlər. Elə etmək lazımdır ki, Qiyamət günü o müqəddəslərin üzünə baxmağa üzləri olsun”.

**İsmayıl Qocayev**

## Cənubi Qafqazda kommunikasiyaların açılması vacibdir

### Paşinyan deyib ki, bu halda Ermənistanın İran və Rusiya ilə əlaqəsi yaranacaq



**Cənubi Qafqaz regionunda kommunikasiyaların açılması Ermənistan üçün təkcə qəbuledilən deyil, həm də prioritetdir.**

Trend-in erməni KİV-lərinə istinadən məlumatına görə, bunu Ermənistanın baş nazir vəzifələrini icra edən Nikol Paşinyan hökumətin iclasında deyib.

Onun sözlərinə görə, əldə olunan razılaşmalara əsasən, bu halda Ermənistanın İran və Rusiya ilə əlaqəsi yaranacaq.

## Yoluxanların sayı azaldı

### 339 yeni yoluxma faktı qeydə alınıb, 12 nəfər vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 339 yeni yoluxma faktı qeydə alınıb, 1170 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 12 nəfər vəfat edib.

Azərbaycanda indiyədək ümumilikdə 331 040nəfər koronavirus infeksiyasına yoluxub.

Onlardan 317 609nəfər müalicə olunaraq sağalıb, 4814nəfər vəfat edib, aktiv xəstə sayı 8617nəfərdir.

*Ölkədə son sutka ərzində 10 568, hazırkı dövrədək isə 3 414 614test aparılıb.*

# Operativ qərargah indi cəmiyyətin səsini eşitməlidir

### Artıq açıq havada maskaları atmağın zamanıdır

“Koronavirus pandemiyasından xilas olmaq üçün axtarışlar davam edir. Ümid edək ki, vaksinləşmə prosesi həyatımızda yeni dövrün başlanmasına səbəb olacaq. İlk gündən bu fikirdə olmuşam ki, insanları dörd divar arasına qapamaq çıxış yolu deyil. Virusdan xilas olmaq üçün bütövlükdə cəmiyyəti səfərbər etmək lazımdır".

**Bu fikirləri ”Şərq”ə açıqlamasında Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə deyib.** S.Verdizadə qeyd edib ki, dünyanın pandemiya ilə bağlı yetərli məlumatı olduğu üçün cəmiyyətlə aşağı sinif şagirdi kimi davranmaqdan vaz keçilməlidir: ”Bir ildən çoxdur ki, insanlar maarifləndirilir, onlara özlərini qorumağın yolları öyrədilir. İnsanlar artıq öyrəndiklərini tətbiq etməlidirlər. Məncə, məsuliyyəti bir az da cəmiyyətin üzərinə qoymaq lazımdır. Bunu cəmiyyətə açıq şəkildə elan edib, yumşalma tədbirlərinə gedilməlidir. Mən ilk gündən bir ziyalı olaraq insanları Operativ Qərargahın qəbul etdiyi qərarlara riayət etməyə çağırmışam. Virusun yoluxma sayının pik həddə çatdığı vaxtlarda bu çağırışlara ehtiyac vardı. Özüm də bu qaydalara tam olaraq riayət edərək cəmiyyətə nümunə olmağa çalışmışam. Lakin hesab edirəm ki, biz artıq pandemiya ilə əlaqədar təhlükəli mərhələni geridə qoymuşuq. Azərbaycan könüllü şəkildə vaksinasiya prosesində iştirak edir. Məndə olan məlumata əsasən, bu gün Azərbaycan vaksinasiya olunan şəxslərin sayına görə MDB məkanında liderlik edir. Əhalinin çağırışlara uyaraq vaksinasiya prosesində aktiv iştirakı, digər lazımi bütün qaydalara əməl etməsi Operativ Qərargahın öz qərarlarına yenidən baxmasına səbəb olmalıdır. Artıq bir il öncəki şəraitə uyğun qərar verilməsindən əl çəkmək lazımdır. Bir çox ölkələrdə karantin rejiminin yumşaldılması ilə əlaqədar addımlar atılır”.





**“Məsuliyyəti cəmiyyətlə bölüşmək lazımdır. İnsanlardan ömrünün axırına kimi qadağalarla yaşamağı tələb etmək doğru deyil”**

**Jurnalistin sözlərinə görə, yumşalma tədbirlərinə açıq havada maskadan imtinadan başlamaq olar:** ”Çox absurd qərardır. Dərhal ləğv olunmalıdır. Bu qərarı qəbul edən Operativ Qərargah üzvləri nəinki açıq havada, heç qapalı məkanda da maska taxmırlar. Biz Operativ Qərargahın iclaslarında bunun şahidi olmuşuq. Bundan başqa, fikrimcə, 250-300 nəfəri avtobusa dolduran adamlar 50-100 nəfərlik açıq havada toy məclisinin keçirilməsinə mane olmamalıdır. Mən hələ də anlaya bilmirəm ki, 200 nəfəri bir avtobusa doldurmaq istəyənlərin məqsədi nədir? Bu suallara cavab verilməlidir. Düşünürəm ki, Operativ Qərargah bu məsələlərdə həssas davranmalıdır. Bu kimi qərarlara təkcə məmurlar və həkimlər qərar verməməli, psixoloqların da bu prosesdə iştirakı təmin olmalıdır. Aylarla insanları dörd divar arasına məhkum etmək onların psixologiyasına da mənfi təsir edib. Biz cəmiyyət olaraq sözəbaxan şagird kimi pandemiya başlayan gündən bəri Operativ Qərargahın bütün tələblərinə əməl edirik. İndi də Operativ qərargah zəhmət çəksin cəmiyyətin səsini eşidib, tələblərinə əməl etsin. Xüsusilə, açıq havada maska taxmaq kimi absurd qərarı dərhal dəyişdirmək lazımdır”.

**Baş redaktor metronun açılmasının da vacib olduğunu deyib:** ”150 nəfəri bir avtobusa dolduran adamların məqsədinin nə olduğunu hələ də anlamıram. Məncə, virusun yayılmasında avtobusların da ”xidməti” var. Hesab edirəm ki, metronu açmağın vaxtı çatıb. İnsanları küçələrdə süründürməkdən əl çəkmək lazımdır. Bir az əvvəl də qeyd elədim, məsuliyyəti cəmiyyətlə bölüşmək lazımdır. İnsanlardan ömrünün axırına kimi qadağalarla yaşamağı tələb etmək doğru deyil”.

**Aynurə Pənahqızı**

# Dmanisidəki insident təkrarlana bilər!

## Maraqlı siyasi mərkəzlər "iş" başındadır



"Bunlar Ermənistan, Gürcüstandakı ermənilər və Rusiyanın bəzi siyasi mərkəzləridir"

Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndə heyəti Gürcüstandadır. Komitə Azərbaycandan kənarda yaşayan hər bir soydaşımızla bağlı məsələlərə həssaslıqla yanaşır və onların problemlərini daim diqqət mərkəzində saxlayır. Hazırda Dövlət Komitəsinin nümayəndə heyəti qonşu ölkədə səfərdədir. Nümayəndə heyətinə Komitə sədrinin müavini Vaqif Seyidbəyov rəhbərlik edir.

Səfər çərçivəsində soydaşlarımızın kompakt yaşadığı ərazilərdə görüşlər keçirilir, onların problemləri dinlənilir, dostluq və mehribanlıq şəraitində yaşamaq, ümumi fəaliyyət göstərmək istiqamətində danışıqlar aparılır. Nümayəndə heyətinin Gürcüstanın bir sıra dövlət orqanlarında görüşləri planlaşdırılıb.

Məlum olduğu kimi, bir neçə gün əvvəl Gürcüstanın Dmanisi rayonunda azərbaycanlıların yaşadığı ərazidə kütləvi dava düşmüşdü. Sakinlərin məlumatına görə, milliyyətcə svan olan bir qrup şəxs azərbaycanlı sahibkar Qəşəm Şamilovun işlətdiyi mağazanın qarşısına gələrək ona, eləcə də mağazanın qarşısındakı azərbaycanlı gənclərə hücum etmişdilər.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu Gürcüstanda baş verən hadisələr barədə "Şərq"ə danışdı:** "Gürcüstan Azərbaycanın strateji tərəfdaşıdır. Odur ki, belə məqamlar bizdə ciddi suallar yaradır. Hər halda bu, ilk belə insident deyil. Dediyim kimi, Gürcüstan Azərbaycanın strateji tərəfdaşıdırsa, belə hallara yol verməməlidir".

**E.Şahinoğlu analoji hadisələrin bundan sonra da təkrarlana biləcəyini istisna etmir:** "Gürcüstan rəsmiləri cinayətkarın tutulduğu barədə açıqlama veriblər. Amma təxribatlar yenə ola bilər. Çünki Azərbaycanla Gürcüstan arasındakı münasibətlərin pozulmasında maraqlı tərəflər var. Bunlar Ermənistan, Gürcüstandakı ermənilər və Rusiyanın bəzi siyasi mərkəzləridir. Həmin qüvvələrə bəhanə vermək olmaz. Deməli, Gürcüstan məsələlərə həssas yanaşmalı və ölkəsindəki azərbaycanlıların sosial problemlərinin həllini tezləşdirməlidir. Əks halda təxribatlar yenə ola bilər".

**Kənan Novruzov**

## Deputat gündəmə gəlmək istəyib

"Sözügedən status, çox güman, məqsədli şəkildə yazılıb"





**"Facebookda 5000 dostum var. Əziz dostlarım! Mənim paylaşmalarıma kim münasibət bildirmək istəmirsə tərk etsin dostluğu. Bunu etməyən şəxsi vicdansız hesab edirəm. Yük olmaq lazım deyil. Mən təhsil və elm barədə ciddi paylaşmalar edəcəm. Dostluq üçün çoxsaylı müraciətlər var... Əks təqdirdə inciməyin, özüm dostluqdan çıxaracam".**

Millət vəkili, təhsil eksperti Etibar Əliyevin sosial şəbəkə hesabında yazdığı bu sözlər birmənalı qarşılanmayıb.

Bəziləri deputata haqq verib, bəziləri isə onu kəskin tənqid və hətta təhqir ediblər. Əlbəttə, sakitcə, necə deyərlər, dinməz-söyləməz parlamentarinin dostluğunu tərk edənlər də olub... Amma əsas məsələ bu deyil. Əsas məsələ odur ki, elm adamı, millət vəkili niyə üzünü belə görmədiyi insanları "vicdansız" adlandırsın və nə üçün bəzi istifadəçilər "qarışqadan fil düzəltsinlər?".

**Sosioloq Sahib Altay bu barədə "Şərq"ə danışıb. Onun fikrincə, parlamentariyə heç bir halda haqq vermək olmaz:** "Belə bir statusu sıravi şəxs yazsa, bu qədər ajiotaj yaranmayacaqdı. Doğrudur, hər kəs sosial şəbəkədə, öz şəxsi hesabında istədiyini yaza bilər. Hətta mən də bu fikirdəyəm ki, paylaşımlara reaksiya bildirməyənlər dostluğu tərk etməlidirlər. Lakin belə bir addım deputata, ictimai adama yaraşmır. Millət vəkili onu bu statusa layiq bilən milləti təhqir etməməlidir! Sözügedən status, çox güman, məqsədli şəkildə yazılıb. İnsanlar adətən bu yolla auditoriyanı qıcıqlandırmaq və gündəmə gəlmək istəyirlər. Və ya, ola bilsin, vəzifədə o qədər çox qalıblar ki, özlərini həddindən çox lazımlı, faydalı hesab edir və daim diqqət mərkəzində qalacaqlarını düşünürlər. Dediyim kimi, problem onun yanaşmasında, fikrində yox, statusuna yaraşmayan ritorika ilə çıxış etməsindədir".

**Kənan**

# Atatürk anıldı

## 19 may Türkiyə dövlətinin milad günüdür

Hər il 19 may günü Türkiyədə Mustafa Kamal Atatürkü anma, gənclik və idman bayramı kimi qeyd edilir. 19 may eyni zamanda türk millətinin müstəqillik və özgürlük ümidlərinin inanca dönüşdüyü, qurtuluşa, aydınlıq gələcəyə olan inancın qüvvətləndiyi gündür. Dünən bu önəmli tarixin 102-ci ildönümü tamam oldu. Düz 102 il əvvəl 1919-cu ildə Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk Samsuna ayaq basaraq, özgürlük savaşının təməlini atdı.

Türk istiqlaliyyət savaşının başladığı 19 may tarixi həm də Atatürkün doğum günü kimi qeyd olunur. Tale elə gətirib ki, Türkiyə Cümhuriyyətinin qurucusu, dünyanın ən görkəmli sərkərdə və dövlət xadimləri sırasında yer almış Atatürkün rəsmi doğum günü tarixə naməlum qalıb. Atatürk 19 mayı - Türkiyənin qurtuluşu və istiqlalı uğrunda savaşa başladığı günü özünün doğum günü olaraq xalqına, türk gəncliyinə və bütövlükdə tarixə ərməğan edib.

Atatürkün mübarizə anlayışı bütün türk dünyası və əslində bütün millətlər üçün dərslərlə doludur. Bu mənada ən az Atatürkü anmaq qədər onu anlamağa çalışmaq da faydalıdır. 1918-ci ilin oktyabrın 31-də Osmanlı Mudros sülhü müqaviləsini bağlamağa məcbur olur. Türk qoşunları tutduqları bir çox əraziləri, o cümlədən Cənubi Qafqazı (Azərbaycanı) tərk etməli olurlar. "İttihad və Tərəqqi" hökumətinin rəhbərləri - Ənvər, Tələt, Camal paşalar isə alman gəmisində ölkəni tərk edirlər. Dövlət faktiki olaraq idarəolunmaz vəziyyətə gəlir. 1919-cu ilin yazında indiki Türkiyənin böyük hissəsi işğal edilmiş, o cümlədən yunan qoşunları ölkənin cənub-qərbini ələ keçirmişdilər. Belə olan təqdirdə Mustafa Kamal İstanbuldakı təslimçi hakimiyyətlə yolları ayırır. "Bandırma" adlı gəmidə İstanbulu gizlicə tərk edərək Samsuna gəlir. Burada mayın 19-da Qurtuluş savaşının başladığını elan edir. Zəfərlə bitən qurtuluş savaşı Türkiyənin tarixində və Mustafa Kamalın həyatında yeni bir şərəfli səhifə açdı. Türk xalqı yenilməzliyini sübut etdi, Türkiyə Cümhuriyyətinin ilk təməl daşı qoyuldu.



**Araşdırmaçı-jurnalist, Cümhuriyyət dövrünün tədqiqatçısı Dilqəm Əhməd "Şərq"ə açıqlamasında deyib ki, 19 may Türkiyə dövlətinin milad günüdür.** Onun sözlərinə görə, Birinci Dünya müharibəsi nəticəsində qosqoca imperiya çökmüş, Fatehin fəth etdiyi İstanbul şəhəri düşmən tapdağı altına düşmüşdü: "İngilislər şəhəri ələ keçirmiş, Osmanlının sayılıb-seçilən ziyalılarını, siyasilərini Malta adasına sürgün etmişdi. Xəlifə ingilislərin boyunduruğunu qəbul etmiş, ölkənin müstəmləkə altına düşməsinə izn vermişdi. Atatürk Samsuna çıxmadan öncəki durumu "Nutuk" əsərində geniş şəkildə izah edib. Bilirsiniz ki, 1918-ci ilin 30 oktyabrında imzalanan Mudros müqaviləsi ilə Türkiyə məğlubiyyəti qəbul etmişdi. Türkiyəni məğlub edənlər isə "xəstə dövlət" adlandırdıqları imperiyanın torpaqlarını öz aralarında bölmək üçün çoxdan hərəkətə keçmiş, gizli müqavilələr imzalanmışdı. 1920-ci ilin 10 avqustunda isə Osmanlını alçaldan Sevr müqaviləsi imzalandı. Bu zaman isə əzilmişliyə etiraz edəcək bir güc artıq vardı. Bu güc Mustafa Kamal paşanın öndərliyində qurulan Türkiyə Böyük Millət Məclisi idi. Artıq İstanbuldakı hökumətin türk xalqının taleyini həll etmək səlahiyyətində olmadığını bildirən Mustafa Kamal paşa 19 maydan sonra Qurtuluş hərəkatına başlamış, Amasya, Ərzurum qurultaylarını keçirərək xalqın dəstəyini qazanmışdı. Nəticədə Mustafa Kamal paşa bu hərəkətinə görə sultan hökuməti tərəfindən ölüm hökmünə məruz qalmışdı".

**D.Əhməd qeyd edib ki, damad Fərid paşa hökuməti dövründə şeyxülislam olan Mustafa Səbri Atatürk haqqında ölüm fətvası vermişdi:** "Amma Mustafa Kamal paşa bütün bu çətinliklərə baxmayaraq, bir tərəfdən ingilis və yunanlarla müharibə apardı, digər tərəfdən İstanbul hökuməti ilə mücadilə etdi. Nəticədə silahdaşlarının cəsarəti ilə Qurtuluş savaşını qələbə ilə nəticələndirdi. Xüsusən, Dumlupınar qələbəsi Qurtuluş savaşının ən önəmli zəfəri oldu. Necə ki, bu gün Zəfər günü olaraq qeyd olunur. Müharibədən sonra imzalanan Lozan müqaviləsi ilə bugünkü Türkiyənin doğuşu tamamlandı. Əgər Mustafa Kamal paşa bu mücadiləni başlatmasaydı, indiki güclü Türkiyə Cümhuriyyətindən danışmaq mümkünsüz idi. Afrika ölkələri kimi Qərbin nəzarətində müstəmləkə altında balaca bir Anadolu dövləti olacaqdı. Mustafa Kamal paşa modern dövlət qurdu, "Misaqi-milli" sınırları içərisində türk dövlətini yaşatdı. Onu da qeyd etmək lazımdır ki, Qurtuluş savaşına Sovet Azərbaycanı hökuməti də dəstək olub. Eləcə də azərbaycanlı zabitlər bu savaşda və sonrakı üsyanların yatırılmasında iştirak ediblər".

**İsmayıl Qocayev**

# Rusiya Ermənistana təzyiq etsə Zəngəzur dəhlizi açılacaq

## "Bizi narahat edən məsələ ondan ibarətdir ki, dəhlizin giriş-çıxışında rus hərbçiləri duracaq"

"Zəngəzur dəhlizi məsələsinin tez-tez gündəmə gəlməsinin strateji alqoritmi var. Bu, sadə məsələ deyil". Bunu "Şərq TV"yə açıqlamasında REAL Partiyasının sədr müavini Natiq Cəfərli deyib. Partiya rəsmisi qeyd edib ki, bəziləri bizim Zəngəzur məsələsində aqressivlik nümayiş etdirdiyimizi, Ermənistan ərazilərinə hücum etmək istədiyimizi düşünür:



"Rusiya istədiyi vaxt müxtəlif bəhanələrlə dəhlizdəki trafiki dondura, yaxud azalda bilər. Buna qarşı Azərbaycan tərəfi addımlar atmalıdır. Bizim əlimizdə də təsir rıçaqları var. Əgər Moskva maneçilik törədərsə, Azərbaycan üzərindən Ermənistana gedəcək yüklərə də biz əngəl ola bilərik"

"Söhbət qətiyyən bundan getmir. Zəngəzur mövzusunun daim gündəmdə qalması Ermənistana xəbərdarlıqdır ki, rəsmi Bakının mövqeyi sizin bu məsələyə yanaşmanızdan asılı olacaq. Yəni həm Qarabağda yaşayan erməni əhalisi ilə bağlı mövqeyinizdən, həm də sərhədlərin müəyyənləşməsində sərgilədiyiniz davranışdan asılı olacaq. Faktiki indi iki dövlət arasında sərhəd yoxdur. Biz hara istəsək girə bilərik. Əgər Ermənistan özünü sığortalamaq və sərhədlərini tanıtmaq istəyirsə, o zaman bizim sərhədlərimizi qəbul etməlidir. Əfsuslar olsun ki, Zəngəzurla bağlı mövqeyimiz cəmiyyətdə ya pafosla qarşılanır, ya da aqressiv münasibət kimi şərh edilir".

**Ekspert vurğulayıb ki, Zəngəzur dəhlizinin açılması Ermənistana da sərf edir:** "Sadəcə olaraq ermənilər indiki psixoloji durumda, həm də seçki öncəsi bu reallığı açıq şəkildə etiraf edə bilmirlər. Bir-iki dəfə Nikol Paşinyan dəhlizin önəmini vurğuladı və daxili hücumlara məruz qaldı. Zəngəzur dəhlizi Azərbaycanla Naxçıvanı birləşdirməkdən əlavə Rusiya üçün də lazımdır. 2008-ci ildən bəri Rusiyanın Gürcüstan üzərindən Ermənistanla dəmir yol əlaqəsi həmişə təhlükə altında olub. Gürcüstan-Rusiya münasibətləri normal deyil və sərhədlər tez-tez qapadılır. Digər yandan dəmir yol xətti dağlıq ərazidən keçdiyi üçün qış aylarında təbii şəraitə görə adətən bağlı olur. Rusiyanın Ermənistandakı iqtisadi və hərbi maraqlarını təmin etmək üçün yükdaşıma trafiki dayanır. Rusiya hava nəqliyyatından istifadə etməyə məcbur qalır. Hava nəqliyyatı isə çox bahadır. Bir reysi yarım milyon dollara başa gəlir və bu zaman çox azləvazimat daşımaq mümkün olur. Ona görə də hesab edirəm ki, Rusiyanın Ermənistana təzyiqlərinin artması nəticəsində Zəngəzur dəhlizinin açılması mümkün olacaq. Bizi narahat edən məsələ ondan ibarətdir ki, dəhlizin giriş-çıxışında rus hərbçiləri duracaq. Rusiya istədiyi vaxt müxtəlif bəhanələrlə dəhlizdəki trafiki dondura, yaxud azalda bilər. Buna qarşı Azərbaycan tərəfi addımlar atmalıdır. Bizim əlimizdə də təsir rıçaqları var. Əgər Moskva maneçilik törədərsə, Azərbaycan üzərindən Ermənistana gedəcək yüklərə də biz əngəl ola bilərik".

**N.Cəfərli vurğulayıb ki, əgər Azərbaycanla Ermənistan arasında yekun sülh sazişi imzalanacaqsa, 1988-89-cu illərdə Ermənistandan məcburi çıxarılmış, 200-dən çox insanın ölümünə səbəb olmuş deportasiya faktı tanınmalı, əlavə bənd kimi salınmalıdır.** Ora qayıdıb-qayıtmayacağımız öz işimizdir. Amma sülh müqaviləsində haqlarımız mütləq tanınmalı və Ermənistan beynəlxalq hüquq müstəvisində buna razılıq verməlidir".

*Siyasi şərhçi bildirib ki, rus sülhməramlılarından başqa bizim ərazimizdə olan bütün silahlılar terrorçudur və hamısı məhv edilməlidir:* "Müharibə ehtimalı həmişə var. Yekun sülh müqaviləsi bağlanana qədər risk qalır. Bundan siyasi dividendlər qazanmaq üçün istifadə edən qüvvələr də olacaq, xarici təsirləri də görəcəyik. Amma indiki dövrdə Ermənistan üçün müharibəyə başlamaq tamamilə məhv olmaq deməkdir. Əslində ermənilərin ritorikasında aqressiya nə qədər çox olsa da, yeni müharibədən qorxduqları bəllidir. Çünki psixoloji, hərbi, texniki və canlı qüvvə baxımdan üstünlük Azərbaycan tərəfdədir. Əgər iyun seçkilərində Ermənistanda hakimiyyətə revanşistlər gələrsə, başıpozuqluq artarsa, həmin qüvvələr möhkəmlənmək üçün "uğur hekayəsinə" ehtiyac duya bilərlər. O zaman 3-5 günlük müharibəyə girişmələri ehtimalı var. Belə təxribatlar sərhəddə də, Qarabağda da mümkündür. Ona görə də mümkün qədər diqqətli və ayıq-sayıq olmalıyıq".

**İsmayıl Qocayev**



# Üzlərindəki maskalar ciddi şübhə yaradır

## Dmanisidəki toqquşma senarisi əvvəlcədən hazırlanıb



**"Əvvəllər də bir neçə dəfə belə hallar olmuşdu. Amma Dmanisidəki insident daha genişmiqyaslı idi".**

*Bu sözləri "Şərq TV"nin "Düzünü deyək" verilişinin növbəti efirində ReAL partiyasının icraçı katibi Natiq Cəfərli deyib. Onun fikrincə, toqquşma senarisi əvvəlcədən yazılıb:* "Məndə olan məlumata görə, hücum edən adamlar əvvəlcədən prosesə hazır olublar. Üzlərindəki maskalar da bunu sübut edir. Və bu, ciddi şübhə yaradır. Hər halda Azərbaycanın xüsusi xidmət orqanları araşdırma aparmalıdırlar".

**N.Cəfərli, həmçinin şübhəyə əsas verən digər məqamı açıqladı:** "Hadisənin baş verdiyi Başkeçid rayonu Ermənistanla sərhəddir. Ermənstanın xüsusi xidmət orqanları illərdir ki, orada müxtəlif proseslərlə məşğuldurlar. Onlar məişət səviyyəsində olan problemləri siyasiləşdirməyə çalışırlar. Hazırda rəsmi İrəvan elə düşünür ki, Azərbaycanla Gürcüstan arasındakı münasibətlər onun üçün təhdiddir. Gürcüstan isə öz növbəsində Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasından, Zəngəzur dəhlizinin açılacağından narahatdır. Kommunikasiya xətlərinin açılmasının həm də Gürcüstanın özünə faydalı olduğunu qonşumuza başa salmalıyıq".

**Kənan**



# Xankəndi narkoticarət üçün istifadə olunurdu

## "Rus sülhməramlıları da prosesdə iştirak edirdilər"



Siyasətlə az-çox maraqlanan hər kəs, yəqin ki, bunun fərqindədir: Azərbaycan öz sərhədlərini bərpa etdiyi bir vaxtda bizə qarşı ard-arda təxribatlar törədilir.

Gürcüstanda svanların soydaşlarımıza hücumu, İranla sərhəddə iki hərbçimizin öldürülməsi və s. kimi faktlar artıq bizi narahat etməyə başlayıb. Maraqlıdır, provokasiyaların indiki vaxta düşməsi təsadüfdürmü? Siyasətdə təsadüf nadir hallarda olur...

*BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli baş verənlərlə bağlı "Şərq"in suallarını cavablandırıb:*

**- Sizcə, son hadisələrin Azərbaycanın qələbəsini rəsmiləşdirməsi ilə eyni vaxta düşməsi təsadüfdür?**

- İnanmıram. Əslində bunlar gözlənilən idi. Məsələ ondan ibarətdir ki, qələbəmiz Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunu xeyli artırdı. Həm Gürcüstanda, həm də İrandakı soydaşlarımızın özünəinam hissi artdı. Hətta türkdilli dövlətlərdə, Rusiyada da eyni prosesin şahidi olacağıq. Qonşu dövlətlər bundan narahatdırlar. Ona görə də formalaşan özünəinam hissini bütün vasitələrlə azaltmağa çalışırlar. İranda fars rejimi, Gürcüstanda isə ermənilər xırda bəhanələrdən istifadə edərək, hətta təxribatlar törədərək bunu edirlər. Beləliklə, rəsmi Bakının imicinə zərbə vurmağa çalışırlar.

**- Niyə düşünürsünüz ki, Gürcüstandakı təxribat məhz ermənilərin işidir?**

- Bəli, buna şübhəm yoxdur. Məlum kadrları izləmişəm. Hiss olunur ki, polis hadisəyə gec reaksiya verir, məsələyə laqeyd münasibət göstərir. Beləliklə, proses bilərəkdən "körüklənib". Hərçənd, belə hallar əvvəllər də olmuşdu və hüquq-mühafizə orqanları operativ reaksiya sərgiləmişdilər. Bu dəfə isə onun əksini gördük. Bunu hətta gürcüstanlı şərhçilər özləri də deyirlər.

**- Bəs İranın təxribatı nə ilə bağlıdır?**

- İran rəsmiləri Qarabağdakı bərpa işlərinə cəlb olunmadıqlarına narazılıqlarını bildiriblər. Halbuki, cənub qonşumuz haqq savaşımız dövründə daim bizə mane olurdu, Xankəndiyə müxtəlif yüklər göndərirdi. İran indi də Azərbaycanın güclənməsini, nüfuz sahibi olmasını istəmir. Həm də rəsmi Tehran müəyyən mənada "B" planını həyata keçirməyə məcbur qalıb.

**- Hansı "B" planı?**

- Rus mətbuatında Xankəndinin narkotrafik üçün istifadə olunduğu barədə material dərc olunmuşdu. Hətta bildirilirdi ki, oradakı rus sülhməramlıları da prosesdə iştirak edirdilər və məhz buna görə prokurorluq həmin zabitlər haqqında araşdırma başladıb. Sonradan vəziyyət dəyişdi. Ermənilər Xankəndiyə nəzarəti itirdikdən sonra İran öz çirkin əməllərini həyata keçirməkdən ötrü alternativ yollar axtarmağa başladı.

**- Potensial təxribatların qarşısını almaq üçün nələr etməliyik?**

- Fikrimcə, təxribatlar davamlı olacaq. Ona görə diqqətli davranmalıyıq. Gürcüstana başa salmalıyıq ki, ermənilərin törətdikləri provokasiyalar qarşılıqlı əlaqələrimizə zərbə vurur, strateji müttəfiqliyimizi təhdid edir. Yəni rəsmi Tiflis hadisələrə həssas yanaşmalıdır. İranın narkoticarəti barədə isə dünya ictimaiyyətinə məlumat verməliyik.

**Kənan**

# Ən ehtiyatlı zaman gəldi

## Sərhədlərin müəyyənləşdirilməsi ilə bağlı Rusiyanın vasitəçilik təklifi ağır nəticələr verə bilər



*"Buna ehtiyac yoxdur. Onsuz da Rusiya Qarabağdakı sülhməramlı missiyası fonunda proseslərdə aktiv iştirak edir"*

**Rusiya Azərbaycan-Ermənistan sərhədindəki insidenti tənzimləmək, o cümlədən demarkasiya və delimitasiyanın keçirilməsini həyata keçirmək üçün tərəflərə vasitəçiliyini təklif edib. Bu haqda Rusiyanın Xarici işlər naziri Sergey Lavrov mayın 19-da tacikistanlı həmkarı Sirociddin Muhriddinlə Düşənbədə keçirdiyi mətbuat konfransında bildirib. Lavrov qeyd edib ki, bu məqsədlə Moskva Ermənistan-Azərbaycan birgə komissiyasının yaradılması təşəbbüsü ilə çıxış edib:**

"Rusiya komissiyanın işində vasitəçi və məsləhətçi qismində iştirak edə bilər". Rusiya XİN başçısı əlavə edib ki, KTMT xarici işlər nazirlərinin qeyri-formal görüşündə ermənilərin "xahişinə" də baxılıb: "Bu xahiş əsasında biz İrəvanla Bakı arasında münasibətlərə dair situasiyanı da müzakirə etdik".

Əksər ekspertlərin fikrincə, Rusiyanın vasitəçiliyi Azərbaycan üçün o qədər də faydalı deyil. Rusiya hərbçiləri Qarabağda separatçıları tərksilah etmədikləri kimi "İsgəndər-M" raketləri ilə bağlı müəmma da çözülməyib. Moskva müharibə günlərində Ermənistana silah və sursat daşındığını gizlətməyib. Belə bir dövlətin Azərbaycan-Ermənistan arasında hakim rolunda çıxış etməsi gözlənilən effekti verməyə bilər.

**BAXCP sədrinin müşaviri Azər Qasımov "Şərq"ə bildirib ki, müharibədən sonra Azərbaycan və Ermənistan sərhədlərinin delimitasiya və demarkasiyası labüddür. Analitikin sözlərinə görə, Moskva da bunun vacibliyinə diqqət çəkir:** "Rusiyanın komissiyanın yaradılması ilə bağlı təklifi ilk baxışda normal görünür. Amma Qaragöl məsələsindən sonra bu prosesin gedişatında erməni tərəfində narazılıq yaranıb və yersiz hay-küyə səbəb olub. Ermənistanın baş nazir əvəzi Nikol Paşinyanın seçkiqabağı bu cür hay-küyə ehtiyacı var idi. O, erməni cəmiyyətində "müharibə" xofu yaratmaqla özünə seçkidə dividend qazanmaq istəyir. Paşinyan erməni cəmiyyətinin müharibədən qorxduğunu yaxşı bilir. Hesab edir ki, Azərbaycan tərəfinin Qaragöl ətrafındakı yüksəklikləri nəzarətə götürməsi erməni cəmiyyətini revanşistlərdən uzaqlaşdıracaq və ona yaxınlaşdıracaq. Kremlin vasitəçilik təklifi isə hər zamankı kimi təhlükəli və çoxmənalı gedişlər güdülən hiyləgər təklifdir. Məncə, buna ehtiyac yoxdur. Onsuz da Rusiya Qarabağdakı sülhməramlı missiyası fonunda proseslərdə aktiv iştirak edir".

*Siyasi şərhçi bildirib ki, Rusiya bu coğrafiyada xırda problemin belə Moskvasız həll edilmə ehtimalının zəif olması fikrini formalaşdırmaq istəyir. Eyni zamanda tərəflər üzərində nəzarətinin olduğuna diqqət çəkir:* "Azərbaycan məsələni həll etməyə qadirdir. Sərhədlərin müəyyənləşməsində rəsmi Bakının heç bir qeyri-qanuni hərəkəti yoxdur. Biz sərhədlərimizi sovet dövrünün xəritələrində göstərildiyi formada delimitasiya və demarkasiya edirik. Ermənistanın və ermənilərin bütün hay-küyləri mənasız olmaqla yanaşı, hamısı qarşıdan gələn seçkiyə hesablanmış oyunlardır".

**İsmayıl Qocayev**



## Qarabağda və Zəngəzurda təxribata cəhd edilsə...

### "Silahlı qüvvələrimiz anti-terror əməliyyatları ilə düşmənə adekvat cavab verəcək"

**Azərbaycan Silahlı Qüvvələrinin 15 min nəfərlik şəxsi heyətdən ibarət hərbi təlimləri davam edir.**

Təlimlərin sərhədlərin müəyyənləşdirilməsi ilə eyni vaxta təsadüf etməsi beyinlərdə müxtəlif suallar yaradır. İnsanları ən çox düşündürən isə budur: Azərbaycan digər torpaqlarını da azad etməkdən ötrü yeni anti-terror əməliyyatına hazırlaşır?

**Hərbi ekspert Ramil Məmmədli bu barədə "Şərq"in sualını cavablandırıb:** "Doğrudur, son vaxtlar təlimlərin intensivləşməsi ilə müxtəlif iddialar ortaya atılır. İddialara konkret, birmənalı cavab vermək çətindir. Lakin proseslərdə ziddiyət əmələ gəlsə, yeni müharibə başlasa, ordumuz bu təlimlərin təcrübəsindən yararlanacaq.

Deməli, təlimlərin keçirilməsi istənilən halda təqdirəlayiqdir.

İkinci bir tərəfdən xüsusi təyinatlı qoşunumuzun hazırlıq səviyyəsinin artırılması onu deməyə əsas verir ki, Qarabağ və Zəngəzurda təxribat cəhdləri olarsa, silahlı qüvvələrimiz anti-terror əməliyyatları ilə düşmənə adekvat cavab verəcək.

Ermənistan riyakarlığını davam etdirərsə və bəyanatın tələblərini yerinə yetirməkdən boyun qaçırarsa, növbəti anti-terror əməliyyatlarının keçirilməsi gözlənilməndir".

**Kənan**



# Makronun davranışları heç kimi təəccübləndirmir

## Fransa Prezidenti həmişə erməni sevdası ilə seçilib

Bu günlərdə ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olan Fransanın növbəti dəfə ermənipərəst mövqeyinin şahidi olduq. Fransa prezidenti Emmanuel Makron Azərbaycanı Ermənistan torpaqlarını işğal etməkdə günahlandırır. Dövlətimizi işğalçı adlandırması Fransanın ədalət anlayışının və beynəlxalq hüquqa yanaşmasının göstəricisidir.

Zəngəzur istiqamətində Azərbaycan Ordusunun dövlət sərhədini bərpa etməsi ermənilərin havadarı olan Fransanı narahat edir. Bu narahatlıq o həddə çatıb ki, Makron açıq-aşkar rəsmi hesabından ordumuzun dövlət sərhədini bərpa etməsini Ermənistan torpaqlarının işğalı olaraq adlandırır. Onun belə davranışı isə seçki öncəsi ermənilərin səsini qazanmaqdır.

**Millət vəkili Məlahət İbrahimqızının "Şərq"ə açıqlamasına görə, əslində Makronun belə addım atması bizi təəccübləndirmir. Çünki o, hər zaman ermənipərəst mövqeyi ilə seçilib:** "Fransa Prezidenti bu yaxınlarda çəkinmədən və bütün beynəlxalq hüquqları pozaraq açıq-aşkar ermənipərəst mövqe sərgilədi. 44 günlük Vətən müharibəsi zamanı da Fransanın bir qrupu rəsmisi, eləcə də Makron erməni sevdası ilə seçilib. Onlar Türkiyə və Azərbaycana qarşı hər zaman şər kampaniyasını təbliğ ediblər. Məlumdur ki, dünyanın ən güclü erməni diasporu Amerika, Fransa və Rusiyadadır. Fransada isə Makronun kifayət qədər erməni seçiciləri var. Onun öz ölkəsində imici hədsiz dərəcədə aşağıdır və qarşıda seçkilər gəlir. Makronun seçicilərinin əksəriyyəti isə ermənilərdir. Erməni diasporu əvvəlki seçkilərdə də Makrona dəstək verib. Fransa başçısı bilir ki, qarşıdakı seçkilərdə rəqiblərinə məğlub olmaq ehtimalı böyükdür. Ona görə də itirəcəyi nəsə yoxdur, bu baxımdan erməni diasporunun simpatiyasını qazanmaq üçün belə bəyanatla çıxış edib.



**Onun mövqeyi bir daha sübut etdi ki, Fransa Minsk qrupunun həmsədr ölkəsi kimi heç vaxt ədalətli, obyektiv mövqe tutmayıb**

Makron yalnız Fransa prezidenti kimi düşünməməli idi. Ona görə də böyük yanlışlığa yol verdi".

**Xanım parlamentarinin qənaətincə, Makron sübut etdi ki, ötən müddət ərzində ATƏT-in Minsk qrupu həmsədrlərindən biri olan Fransa heç də ədalətli və obyektiv mövqe tutmayıb:**

"Bu mənada Makronun atdığı tvit də kifayət qədər diqqəti cəlb etdi. Bilinmir ki, bu tiviti özü yazmışdı, ya kiməsə yazdırmışdı. Amma həmin tvitdə erməni məhəbbətini o qədər böyük formada təzahür etdirmişdi ki, həm fransız, həm ingilis, həm də erməni dilində yazılmışdı. Ona sual vermək lazımdır ki, "Minsk qrupunun həmsədr ölkəsi kimi ötən dövr ərzində təcavüzkar Ermənistana bir dəfə olsun deyib ki, ordusunu geri çəksin?". Çünki BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə yazılıb ki, Ermənistan ordusu təcili şəkildə Azərbaycan torpaqlarından çıxmalıdır. Makron belə düşüncələrdən uzaq adamdır. Müharibənin ilk həftələrində ermənipərəst mövqeyini gizlədə bilməsə də, Ali Baş Komandanımızın və Müzəffər Ordumuzun qələbəsindən sonra çalışdı ki, neytral mövqe sərgiləsin. Lakin bu günlərdə səsləndirdiyi fikir bir daha göstərdi ki, o, ermənipərəst ampluadan kənara çıxa bilmir. Yenə də ortaya çıxdı ki, Makron dünyada təcavüzkar dövlət kimi tanınan Ermənistanın mənafeyinə xidmət edir".

**Yeganə Bayramova**

# Aldanmaq olmaz

## Mövzunu ermənilər “5-ci kolon”un yardımı ilə gündəmə gətirir



“Erməni terrorçuları kəndlərlə dəyişmək Azərbaycana diplomatik və hərbi uğur gətirməz”

10 noyabr 2020-ci il üçtərəfli bəyanatına əsasən, Qazaxın 7, Naxçıvanın Kərki kəndinin Azərbaycana qaytarılması öz əksini tapıb. Lakin məsələ hələ də həll olunmamış qalıb. Kəndlərin qaytarılması zaman-zaman gündəmə gətirilir, müəyyən iddialar irəli sürülür. Hətta belə bir fikir bildirilir ki, üçtərəfli bəyanatdan sonra ərazilərimizə müdaxilə edən erməni terrorçularını təhvil verib, qarşılığında sözügedən kəndlər qaytarılmalıdır.

Azərbaycan, Ermənistan və Rusiya nümayəndələri arasında bir neçə gündür ki, davam edən Qaragöl ərazisi ilə bağlı danışıqların şifahi razılaşmasının ilkin, lakin rəsmi şəkildə hələ təsdiqlənməyən detalları açıqlanıb.

Şifahi razılaşmaya əsasən, Qarabağdakı bütün erməni silahlıları çıxarılır. Eyni zamanda, Qırmızı Bazar-Şuşa yolu Azərbaycan ordusunun nəzarətinə verilir. Həmçinin Qazaxın işğalda olan 7 kəndi və Naxçıvanın Kərki kəndi azad edilir.



**Siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyev ”Şərq”ə bildirib ki, Qazaxın 7 kəndi və Naxçıvanın Kərki kəndinin qaytarılması 10 noyabr üçtərəfli bəyanatında öz əksini tapsa da, bu məsələni gündəmdən çıxarmağa çalışdılar:** ”Lakin Azərbaycan Prezidenti zaman-zaman məsələni gündəmə gətirir. Erməni terrorçularını təhvil verməklə Qazaxın 7, Naxçıvanın isə Kərki kəndinin qaytarılması yolverilməzdir. Çünki Azərbaycan dövlət olaraq həm döyüş meydanında, həm də masa arxasında birmənalı şəkildə qələbə qazanıb. Ona görə də belə addımın atılması zəfərə kölgə salınmış kimi qiymətləndirilə bilər. Elan etmişik ki, erməni terrorçuları atəşkəsdən sonra Azərbaycan ərazisinə girib terror törətmək istəyən təxribatçılardır. Onları həmin kəndlərə dəyişmək Azərbaycana diplomatik və hərbi uğur gətirməz. Fikrimcə, bu məsələnin gündəmə gətirilməsində daha çox ermənilərin rolu var. Onlar ”5-ci kolon”un vasitəsilə mövzunu gündəmə gətirirlər. Yəni gələcəkdə Azərbaycanı ikitərəfli danışıqlardan qaçan kimi təqdim etmək istəyirlər. Təəssüf ki, mediamız da məsələni dərk etmədən tirajlayır”.

**C.Nuriyevin sözlərinə görə, onsuz da sözügedən kəndlər qaytarılmalıdır:**

”Kəndləri almaq üçün əvəzində əlimizdə ən böyük fürsət olan erməni terrorçularının təhvil verilməsi daha təhlükəlidir. Hansı zəmanətimiz var ki, həmin ermənilər Ermənistana qaytarılandan sonra Qarabağa gəlib terror törətməyəcəklər? Çünki ermənilər ömrü boyu verdikləri heç bir sözə əməl etməyiblər. Ona görə də bu tipli məsələlərdə aldanmaq olmaz. Adam Qults adlı alman tədqiqatçısı var. O, ”Anadoluya səyahət” əsərində yazır ki, ”ermənilərə zərrə qədər də inanmaq olmaz, onlar yalan danışmaqda çox ”mahirdirlər”. 100 il bundan öncə yazılmış əsərdə belə fikirlər var. Niyə özümüzdən Amerika kəşf edək ki? Fikrimcə, erməni terrorçularının kəndlər qarşılığında qaytarılması danışıqlar predmeti olmamalıdır”.

**Yeganə Bayramova**



# Səlcuq Bayraqdar məşhur alimlə müqayisə edilib

### “Hər iki kəşf bəşəriyyət üçün eyni dərəcədə əhəmiyyətlidir”

**Türkiyənin CCTV kanalında efirə gedən bir verilişdə yerli müdafiə və təhlükəsizlik eksperti Song Yiçang pilotsuz uçuş aparatlarının (PUA) yaradıcısı, türkiyəli ixtiraçı Səlcuq Bayraqdar haqqında danışıb.**

“Şərq”ə ”Haberglobal”a istinadən xəbər verir ki, mütəxəssis sözügedən kəşfi yüksək qiymətləndirib.

O, PUA-nı Steven Jobsun ”ağıllı telefon” texnologiyası ilə müqayisə edib. Və bildirib ki, hər iki kəşf bəşəriyyət üçün eyni dərəcədə əhəmiyyətlidir.

**Kənan**

# ABŞ vətəndaşlarını Ermənistana getməməyə çağırıb

**ABŞ Dövlət Departamenti öz vətəndaşlarını Ermənistana səfər etməməyə çağırıb.**

Trend-in məlumatına görə, bu barədə Departamentin bəyanatında deyilir.

*Qeyd olunur ki, bu çağırış Ermənistanda COVID-19 pandemiyası ilə bağlı davam edən vəziyyətlə əlaqədar edilib.*



# Azərbaycanda terror təhlükəsi riski mövcud deyil

### DTX: Məlumatlar həqiqəti əks etdirmir və tamamilə əsassızdır

**Amerika Birləşmiş Ştatlarının Dövlət Departamentinin rəsmi internet səhifəsində ABŞ vətəndaşlarına Azərbaycanda COVID-19 koronavirus infeksiyası və yüksək terror təhlükəsi riski ilə əlaqədar məlumat verilib, onlara ciddi zərurət olmadığı təqdirdə ölkəmizə səyahət etməmələri tövsiyə olunub.**

Bu barədə Dövlət Təhlükəsizliyi Xidmətinin saytı məlumat yayıb.

”Qeyd olunan məlumat sosial media resurslarının Azərbaycan seqmentində yayılıb. Bununla əlaqədar bəyan edirik ki, Azərbaycan Respublikasının ərazisində terror təhlükəsinin olması ilə bağlı verilən bu kimi məlumatlar həqiqəti əks etdirmir və tamamilə əsassızdır.

Eyni zamanda bildiririk ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu hüquq mühafizə və təhlükəsizlik siyasəti nəticəsində ölkəmizdə yaradılmış dayanıqlı sabitlik və əmin-amanlıq vətəndaşlarımızın, həmçinin Azərbaycana gələn əcnəbilərin təhlükəsizlik şəraitində yaşamasına təminat verir. Hazırda ölkəmizə səyahət etmək istəyən şəxslər üçün hər hansı terror təhlükəsi riski mövcud deyildir”, - məlumatda bildirilib.

# Qırmızı Bazar yolunun bağlanması diqqət çəkməyə hesablanıb

## Zəngəzur dəhlizinin açılması ermənilərin bütün cığallıqlarına son qoyacaq



*“10 noyabr sazişi arzu etdiyimiz templə olmasa da, addım-addım reallaşır”*

Ermənilər Şuşa istiqamətində Qırmızı Bazara gedən əsas yolu bağlayıblar. İddia ediblər ki, guya, buradan keçən Azərbaycan hərbçiləri onları "təhqir edir, söz atır" və s. Bir qrup erməninin yolu kəsməsini əks etdirən videogörüntülər sosial şəbəkələrdə yayılıb.

Məlumat üçün bildirək ki, videogörüntü erməni bloger Metaqse Hakopyan tərəfindən paylaşılıb. Xankəndindən Şuşaya qədər olan yolu çəkən Hakopyan ermənilərin bu yola həsrət qaldıqlarını deyib. Mövcud reallığı anlamayan, proseslərdən dərs çıxarmayan Hakopyan torpaqların ”əldən çıxmasına” görə Paşinyan hökumətini ittiham edib. Artıq Ermənistanın parçalandığını, vahid dövlət olaraq mövcud olmadığını söyləyib.

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev ”Şərq”ə açıqlamasında bildirib ki, 10 noyabr sazişi arzu etdiyimiz templə olmasa da, addım-addım reallaşır. Politoloqun sözlərinə görə, sərhədlərin delimitasiyasına başlanılması və Zəngəzur yolunun açılması həlli vacib olan mühüm məsələlərdir:** ”Bu proses erməni tərəfinin bütün cığallığına son qoyacaq. Nəzərdə tutulan qaydada və qrafikə uyğun davam etdiyi təqdirdə Qarabağda qalıb yaşamaq istəyən ermənilər üçün də böyük əhəmiyyət kəsb edəcək. Rəsmi İrəvan Naxçıvan istiqamətindəki dəhlizin açılmasını ləngitmək üçün Qarabağdakı erməniləri təxribatlara sövq edir. Qarabağda qalıb yaşamaq istəyən ermənilər çox gözəl anlayırlar ki, Zəngəzur yolunun açılmaması gələcəkdə Laçın koridorunun qapanması ilə nəticələnə bilər. Bu da sülh istəməyən separatçı qüvvələr üçün arzuolunmayan hadisədir. Bu səbəbdən ermənilər Qırmızı Bazar yolunu bağlamağa cəhd etməklə diqqət çəkməyə çalışırlar. Eyni zamanda bu aksiya bölgədə davamlı sülhün yarana biləcəyindən narahatlıq duyan xarici qüvvələrin də maraqları ilə uzlaşır. Lakin Fransa prezidentinin ermənicə yazılan dəstək tvitinə cavab olaraq ABŞ prezidentinin müşaviri Sallivanın dövlət başçısı İlham Əliyevə zəng etməsi və tərəfdaş olaraq əlaqələrimizdən məmnunluq bildirməsi Azərbaycanın xarici siyasətdə doğru yolda olmasının göstəricisidir. Vurğulamaq lazımdır ki, Azərbaycanın digər bölgələrindən Şuşaya gediş daha çox Xankəndi şəhərindən keçməklə gerçəkləşir. İndiyə qədər bu istiqamətdə heç bir insident qeydə alınmayıb. Əksinə, sadə ermənilər azərbaycanlı işçilər və turistlərlə ünsiyyətə meyillilik göstərir”.

**İsmayıl Qocayev**








# Yaşı 100-ü keçib

## Bura "Qazax Müəllimlər Seminariyası"nın binasıdır

May ayının ikinci həftəsidir. Müsəlman aləmində Ramazan bayramı qeyd olunur. Mənim də gözümə işıq gəlib, yaman sevincliyəm. Nə yalan deyim, dindar deyiləm. Bu müqəddəs bayramın məni sevindirən tərəfi 7 günlük tətilə vəsilə olmasıdır. Qeyri-rəsmi iş günü olan kimi Bakının səs-küyündən qaçıb doğma diyara yollandım. Və həm ziyarət, həm ticarət etmək qərarına gəldim.

Vətənin qərbini qarış-qarış gəzməyi, bir-iki reportaj yazmağı planlaşdırdım. Ağlımdakı yerləri gedəcəklərim siyahısına əlavə etdim.

Birincisi, "Qazax müəllimlər seminariyası"nın binasıdır.

Yaşı 100-ü keçən bu bina mənə olduqca maraqlıdır. Vədə yetişir, Ağstafadan Qazaxa tərəf yol alıram. Səbəbsizcə həyəcanlı və sevincliyəm. Düzü, keçirdiyim hisslər mənə uşaqlıq illərimdən tanışdır. O vaxtı nənəmlə Qazaxa tez-tez gedərdik. Qazax-Ağstafa avtobusunda pəncərənin yanında özümə yer tapar, gözümü yola zilləyərdim. Yolboyu sıralanan dağları izləməkdən doymazdım. Ən çox da yaz-yay aylarında gözəl olur biz tərəflər. Yaşıllıq, çəmənlikdə cücərən sarı, mavi çiçəklər, lalələr doğma diyara bir başqa yaraşır. Nə başınızı ağrıdım... İctimai nəqliyyat işləmədiyindən Qazax-Ağstafa avtobusundakı yerimi ala bilmədim. Amma taksidə vərdişimə əməl etdim.

Nəhayət ünvana çatdıq. Maşın Qazaxın məşhur "Fəxri qazaxlılar" parkının yanında dayandı. Parkdan daha sonra danışacağıq. İndi isə seminariyanın binasını tapmaq kimi vacib işimiz var. Maşından düşüb bir az piyada yol getdik. Yanlış istiqamətdə irəlilədiyimizi anlayıb, bir nəfərdən ünvanı soruşmalı olduğumuzu düşündük. Kölgədə durub müştəri gözləyən taksi şoferlərindən məkanın yerini müəyyənləşdirdik. "Məscidin qarşısındadır"- dedilər. Yavaş-yavaş addımladıq. Qazaxın necə gözəl olduğunu düşünə-düşünə irəliləyirdim. Qırmızı kərpicdən tikilmiş evlər, taxta eyvanlı mənzillər şəhərin gözəlliyinə gözəllik qatır. Yolun kənarındakı mavi taxta bina diqqətimi çəkir. Dayanıb fotosunu çəkirəm. Sonra yola davam!

Müharibə veteranlarının və iştirakçılarının istirahəti üçün bir yer hazırlanıb. Çayxanaya bənzəyir. İçəridə yaşı 70-80 arası dayılar əyləşib, nərd oynayır, yaxud da çay içirlər. Nə yaxşı düşünüblər. Onlar üçün xüsusi məkanın olması təqdirəlayiqdir.

Məscidə doğru gedirik. Artıq həmin küçədəyəm. Sağ tərəfdə məscid, onun qarşısında isə Şəhidlər xiyabanı var. Burada şəhid qardaşlarımızın adları əbədiləşdirilib. Bir az qabaqda isə "Qazax müəllimlər seminariyasının" binası yerləşir. Küçənin adı da "Şəhidlər xiyabanı"dır. Minbir ümidlə addım-addım seminariyaya tərəf yürüyürəm.

Qeyd edək ki, 1918-cı ildə Qori Seminariyasının Azərbaycan bölməsi Azərbaycan Respublikasının maliyyə vəsaiti hesabına Qazax şəhərinə köçürülür. SSRİ dövründə 1940-cı illərə qədər Qazax Pedaqoji Texnikumu adı ilə fəaliyyət göstərir. Bu tədris ocağının Qazax şəhərinə köcürülməsində görkəmli maarifçi, pedaqoq, metodist, ədəbiyyatşünas, publisist Firudin bəy Köçərlinin çox böyük xidmətləri olub. Qori Seminariyasının Azərbaycan şöbəsinin bazasında Müstəqil Qazax Seminariyasının təntənəli açılışı olur. Açılışda Qazaxda yerləşən türk ordusunun komandanı Səbri bəy, Türk Qarnizonunun rəisi Camal bəy, Qazaxın rəisi H.Şıxlınski və yerli hökumətin məmurları iştirak edib. Bundan başqa Cəbrayıldan, Şamaxıdan, Ağdamdan, Göyçaydan, Naxçıvandan, Zaqataladan və başqa rayonlardan da şagirdlər gəlib, burada təhsil alırdılar. Böyük maarifçi və ictimai xadim Firudin bəy Köçərli seminariyaya başçılıq etməklə yanaşı, Qazaxda yüzlərlə qız uşağının savad əldə etməsi üçün yetimlər kursu təsis edir, qaçqınlara yardım fondu yaradırdı. Lakin 1920-ci ildə Firudin bəy Köçərli erməni terrorçuları tərəfindən qətlə yetirilir. Bundan sonra seminariyaya xalq yazıçısı Mehdi Hüseynin atası Əli Hüseynov rəhbərlik edir.

Qazax Seminariyasının fəaliyyəti Azərbaycanda təhsilin, maarifin inkişafına böyük təkan verdi. Görülən təcili tədbirlər nəticəsində artıq 1919-cu ilin əvvəlində Bakıda, Gəncədə, Nuxada, Salyanda, Şuşa və Qazaxda 23 dövlət orta təhsil müəssisəsi, o cümlədən 6 kişi, 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllim seminariyası, 3 qadın təhsil müəssisəsi, 1 politexnik və 1 ticarət məktəbi fəaliyyət göstərirdi.

İstər Bakıdan rayona, istərsə də Ağstafadan Qazaxa gedəndə ağlımda bir hekayə dolanırdı. Qori Müəllimlər Seminariyasının Qazaxda bölməsi açılanda Xalq şairi Səməd Vurğunun 12 yaşı olub. Anasını tez itirən S.Vurğun nənəsi Aişənin himayəsində böyüyüb. Seminariya Qazaxda fəaliyyətə başlayanda nənəsi balaca Səmədin əlindən tutub bura gətirir. Firudun bəy xəstə, arıq, qızdırmadan rəngi solmuş Vurğuna baxıb nənəsi Aişəyə deyir:

**- Arvad, bu uşağı illət basıb öldürür, bu oxuya bilməz, bundan bir şey çıxmaz, - deyə onu qəbul etmək istəmirdi.**

*Aişə xanım isə söyləyir:*

- Firudin bəy, mənə yazığın gəlsin, bu uşaq nəvəmdir, anadan yetim qaldığına görə bu günə düşüb, - deyə yalvarırdı.

Onun yalvarışları nədənsə Firudin bəyə təsir etmir.

Səməd sağ əlini sol döşünün üstünə qoyub ürəyinə işarə edərək, çox ahəstə bir səslə:

- Ah! A Firudin bəy, bircə bilsəydin ki, burda, bu ürəkdə nələr var...

F.B.Köçərli Səməd Vurğunun cavabından sonra onu seminariyaya qəbul edir. İndi mən də düşünürdüm... düşünürdüm ki, qapıdan içəri daxil olanda Firudun bəy belə fikirləşəcək. Deyəcək ki, bu cılız, balaca qız seminariyadan nə yazacaq axı? Mən də Səməd Vurğun kimi eyni tərzdə dayanıb, başımı göyə qaldırıb söyləyəcəm ki, siz bilsəydiniz, bu ürəkdə nələr var... Təbii dialoqumuz xəyalən alınacaqdı. Lakin olmadı! Qədərqismət deyək. Ölkədə qeyri-rəsmi iş günü olduğundan binada kimsə yox idi. Qapısına isə böyük bir qıfıl vurmuşdular. Yenə də əliboş qayıda bilməzdim. Çöldən binanın fotolarını çəkdim, divarlarına diqqətlə baxdım. Bir dayı yaxınlaşdı, soruşdum ki, bu gün gələn olarmı? "Yox"-dedi. Söylədi ki, yaxın zamanda "Qazax müəllimlər seminariyası"nın ildönümü olacaq, gəlib çəkiliş ediblər. Mən də binanın daşını, divarını nəzərdən keçirirdim. Gözümün önündə o zamanlar canlanırdı.

Bir az da ətrafında dolandım. Çöldən içəri boylandım. Bina ikimərtəbəlidir, bəyaz rəngdədir. Elm ocağına yaraşan kimi. Şəhərin ortasında parıldayır, işıq saçır! Biz orada ikən bir neçə nəfər də gəldi, onlar da məyus qayıtdılar. Onu da deyim ki, bina indi də təhsil ocağı kimi fəaliyyət göstərir.







Yolüstü bir az əvvəl bəhs etdiyim "Fəxri qazaxlılar" parkına baş çəkdim. Burada Qazaxın tanınmış şəxsiyyətlərinin büstləri qoyulub. Onlara Əliağa Şıxlınskini, Vaqif Səmədoğlunu, Aşıq Ədaləti misal göstərmək olar. Parkda bir xeyli adam oturub. Hamısının başı söhbətə qarışıb. Sizə bir sirr verim, aramızda qalsın. Qazaxda açıq havada maska taxılmır. O məlum qayda bura da aiddir. Fəqət belə gözəl havada aptek qoxulu maska ilə nəfəsimizi həbs etmək təbiətə haqsızlıq olar. Ona görə buradakılar təmiz havanın dadını çıxarırlar. Məndə isə Bakıdan vərdiş qalıb, maskanı çıxarmamışdım. Həmvətənlərim elə maraqlı gözlərlə baxırdılar ki, sonradan maskasız dolaşmaq yadıma düşdü. Gənc yaşda itirdiyimiz yazıçı Mövlud Mövlud bir hekayəsində Qazaxı "Təəccüblənənlər yurdu" adlandırmışdı. Ağlıma onun sözü gəldi. Bu dəfə də mən mavi rəngli maskamla doğma qazaxlıları təəccübləndirdim.

"Fəxri qazaxlılar" parkını da seyr edib yola düşürəm. Evə dönmək gərək. Qazaxa gəlib bazardan qatlama almadan qayıtmaq olmaz.

Bu yerlər mənə o qədər doğmadır ki. Uşaqlıq çağlarımın ətri duyulur. Həmişə nənəmlə Qazax-Ağstafa avtobusundan düşüb bazarın yanındakı dayanacaqda kənd marşrutunu gözləyirdik. Buradan Qazaxbəyliylə getməli idik. Dayanacağın yanındakı binanın üstü çayxana idi, hələ də elədir. Aşağıda bir xala otururdu, dəqiq yadımda deyil, tum, ya bulka satırdı. Nənəmin əlindən bərk-bərk yapışıb avtobusun gəlməyini gözləyirdim, səbirsizlənərdim. Gələndə də həmişəki kimi pəncərənin yanındakı oturacaqda əyləşərdim. Mən yola boylanardım, nənəm də illər öncə birgə yaşadığı qonşuları ilə danışardı. Keçmişdən, indidən...yolboyu söhbət edərdilər. Onların şirin ləhcəli dialoqları nəğmə kimi səslənərdi. Sanki tamam başqa dünyadan söz açırdılar. Mənim isə dərdim yolu izləmək idi.

Qazaxda ilk azərbaycanlı hərbi təyyarəçi Fərrux Ağa Qayıbovun xatirəsinə ucaldılan təyyarə-heykəl abidəsi var. Kənd avtobusu onun yanından keçərdi. O heykəli görmək üçün can atardım. Deyəsən, həmin abidənin yeri sonradan dəyişdirildi. Marşrut irəlilədikcə Göyəzən dağı görünərdi. Elə gözəl mənzərələr idi ki... Bunları xatırlaya-xatırlaya qatlama alıb, taksiyə zəng etdim. Hansısa bir qüvvə məni uşaqlıq illərimdə səyahət etdirib, yenidən 21-ci əsrin pandemiya dövrünə qaytardı.

Xülasə, siz yazdıqlarımı oxuyun, mən də qatlamamı yeyim...

**Samirə Ərəblinski**

# Müttəfiqliyə məcburdurlar

*Rusiya və İran Qərbdən gələn siyasi və iqtisadi basqılara duruş gətirməyə çalışır*



"Uzun illərdir ki, dünyanın müxtəlif coğrafiyalarında Rusiya ilə İran müttəfiqlik göstərir".

**Bu fikirləri "Şərq"ə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov deyib. O vurğulayıb ki, bu mütəffiqlik təbii ki, bir çox hallarda təsadüfi olmayıb və zəruri xarakter daşıyır:** "Burda əsasən, Avroatlantik siyasi şüurun və Qərb imperializminin basqıları mühüm rol oynayır. Çünki həm İran, həm də Rusiya daim ABŞ və onun müttəfiqləri tərəfindən təhdid olunur.

Qeyd edim ki, İrana qarşı müxtəlif sanksiyalar tətbiq olunursa, Rusiyaya da bu sanksiyaların başqa bir forması tətbiq edilir. Əlbəttə ki, Qərb tərəfindən uyğulanan sanksiyalar, basqılar və hədə-qorxular nəhayətdə İranla Rusiyanın vahid məcrada çıxış etməsini labüd edir. Mən bu baxımdan düşünürəm ki, xüsusən anti-Qərb ritorikası və Qərb əleyhinə olan çağırışlarda İranla Rusiyanın birgə addımlar atmağı hər iki dövlətin siyasi maraqları baxımından məqbul hesab olunur. Həmçinin strateji qərarlar baxımından da bunun doğru olduğunu düşünürəm".

**T.İsmayılov əlavə edib ki, ümumilikdə nə İran, nə də Rusiya bir-birinin daha da güclü olmasını istəmir:** "Çünki bu regionda Rusiyanın öz, İranın da öz maraqları mövcuddur. Ona görə də həddən artıq güclənmiş Rusiya İranın maraqlarına cavab vermədiyi kimi, həddən artıq güclü olan İran da Rusiyanın maraqlarına cavab verə bilmir. Lakin bütün bunlara baxmayaraq, İranla Rusiya dünyanın müxtəlif bölgələrində məcburi şəkildə də olsa müttəfiqlik nümayiş etdirməyə məcburdurlar. Çünki bir daha qeyd edirəm ki, bu, xüsusən Avropa və Amerika siyasi dairələrindən gələn siyasi və mənəvi hücumların, iqtisadi basqıların qarşısında duruş gətirmək üçün lazımdır. Yəni bu müttəfiqlik hansısa bir istəkdən, könüllülükdən deyil. O zamanın, şəraitin və beynəlxalq siyasi münasibətlərin diktə etdiyi mühitin tələbatından doğur. Bu baxımdan Rusiya ilə İran arasında hansısa genişmiqyaslı birlik olmasa da ortaqlığın genişlənəcəyini düşünürəm".

**Aynurə Pənahqızı**

## Paşinyanla keçmiş prezident anlaşıb

Ter-Petrosyanın seçkilərə qatılması müxalif güclərin səsini parçalayacaq



**Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın rəhbərlik etdiyi Erməni Milli Konqresi partiyası erkən parlament seçkilərində iştirak edəcək.**

Bu barədə partiyanın qurultayında qərar qəbul olunub. Partiyanın seçki siyahısına Ter-Petrosyan özü şəxsən başçılıq edəcək. Qeyd edək ki, Ermənistanda erkən parlament seçkiləri iyunun 20-də keçiriləcək.

Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Məhəmməd Əsədullazadə deyib ki, Ermənistanda seçkilərin çox gərgin keçəcəyi gözlənilir. O hesab edir ki, Levon Ter-Petrosyanın seçkilərə qatılması müxalifət qruplarının parçalanmasına gətirəcək: "Ermənistan Milli Konqresinin sədri Levon Ter-Petrosyanın seçkiyə qatılması Paşinyana qarşı ciddi mübarizəyə çevrilməsi gözlənilmir. Çünki ilk növbədə Levon Paşinyanla müttəfiq olub. Levon ola bilər ki, Paşinyanla gizli anlaşaraq Koçaryanın seçkilərdə mövqeyini zəiflətmək üçündür".

M.Əsədullazadə əlavə edib ki, Petrosyan özü də Koçaryana qarşı kəskin mövqe sərgiləyir: "Koçaryanla Petrosyanın mövqeləri ziddiyyətlidir. Amma Paşinyanla eyni senaridə yer ala bilir. Ona görə də Petrosyanın seçkiyə qatılması və Paşinyanı tənqid etməsi ciddi şəkildə Koçaryan və digər müxalifət qrupların parçalanmasına gətirəcək. Hesab edirəm ki, ölkədə seçkilər gərgin və mübarizə şəraitində keçəcək".

**Aynurə**



# Ermənilər hələ də ianə dilənirlər

*Kanada Qarabağ ermənilərinə yardım etmək istəyirsə Azərbaycanla danışmalıdır*

Kanada hökuməti Qarabağ ermənilərinə 1 milyon Kanada dolları (830 min dollar) məbləğində humanitar yardım ayırıb. Bu barədə Kanada Xarici işlər naziri Mark Qarno Tvitter səhifəsində yazıb. "Kanada münaqişənin həlli üçün səyləri dəstəkləməyə davam edir və onun dəhşətli humanitar nəticələrinin aradan qaldırılmasında iştirak etməyə hazırdır. Biz Beynəlxalq Qırmızı Xaç Komitəsinin Qarabağada işi üçün 1 milyon dollar əlavə məbləğ ayırdıq", - Qarno bildirib.

**Mövzuya münasibət bildirən Siyasi və Hüquqi Strateji Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Xəyal Beşirov "Şərq"ə açıqlamasında deyib ki, o hesab etmir ki, Kanada bu addımında xoş niyyətli və saf məramlıdır. O vurğulayıb ki, bu, bir daha Qərbin əksər proseslərə siyasi və hüquqi ikiüzlü yanaşmasının təzahürüdür:** "Hər bir halda xeyriyyəçilik və yardım etmək müsbət bir haldır və xoş işdir. Ancaq o zaman ki, bu, doğrudan da xoş niyyətlə edilsin. Kanada dövləti xoş niyyətini ortaya qoyub bu yardımı səmimi olaraq edirsə və bu yardımın həmin ərazilərdə terrorçuluğun inkişafına sərf olunmamasında maraqlıdırsa, o zaman bir sıra nüanslara riayət etməlidir. Öncə Qarabağ təkcə Azərbaycan vətəndaşı olan ermənilərə deyil, həm də azərbaycanlılara aiddir. Hətta ehtiyac olmasa belə, qarşı tərəfin niyyətində səmimi olmasını müəyyənləşdirmək üçün bu cür yardımların edilməsində bərabər yanaşma vacibdir. Digər bir əhəmiyyətli məqam isə odur ki, son otuz ildə de-yure Azərbaycana aid olan Qarabağ hazırda de-fakto da Azərbaycanın tərkibindədir. Əgər belədirsə, Azərbaycana aid ərazilərdə yaşayan topluma ayrılan yardım Azərbaycan dövləti vasitəsilə olmalıdır. Buna dair Azərbaycanla danışıqlar aparılmalı, əgər bu mümkün deyilsə, yardım edilməməlidir. Çünki bu, ərazi bütövlüyünə hörmət prinsipidir və hər bir dövlət bu amilə hörmət etməlidir. Subyektiv olaraq hesab etmirəm ki, Kanada bu addımında xoş niyyətli və saf məramlıdır. Bu bir daha Qərbin əksər proseslərə siyasi və hüquqi ikiüzlü yanaşmasının təzahürdür". *Politoloq vurğulayıb ki, bütün bunlar Ermənistan kimi dövləti daim ianəyə və yardıma möhtac qoyub öz əmr quluna çevirməyə xidmət edir:* "Ancaq siyasi cəhətdən kor və kar olan rəzil Ermənistan rəhbərliyi bu günə qədər bu acı reallığı dərk etməyib və ya etmək istəmir. Tam fərqli olaraq, Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarını və düşmənçilik siyasətini bir kənara qoyub çox güclü inkişaf prosesinə qədəm qoymağı düşünə bilmirlər. İanəyə möhtac olan dövlətdən, Azərbaycan kimi ianə edən dövlətə çevrilə biləcəklərini anlamırlar. Bəlkə də, onları əsassız ittiham edirik. Bəlkə də belə də olmalıdır ki, qul təfəkkürü ilə doğulub, siyasi alət olmaq missiyası ilə yaşayanlar, ianə dilənməklə də ölməyə məhkumdurlar".

**Aynurə Pənahqızı**

# ABŞ anlayır

*"İsrailə qarşı koalisiya yaranacaq"*

İsrail və Fələstin arasındakı müharibə artıq təxminən on gündür ki, davam edir. Ölənlərin sayı günü-gündən artır. Ziddiyyətləşən proseslər isə qlobal xarakter daşıyır və dünya üçün yaxşı nə isə vəd etmir. Bir çoxlarının fikrincə, ən qısa zamanda tərəflər arasında atəşkəs əldə olunmasa, digər ölkələr də hərbi əməliyyatlara qoşulacaq.



"Bu birliyə qardaş Türkiyə başçılıq edəcək"

**Politoloq Natiq Miri isə düşünür ki, tədricən "sular durulacaq". O, hadisələrin inkişafı barədə proqnozlarını "Şərq"lə bölüşüb:** "Böyük müharibənin olacağını fikirləşmirəm. Çünki ABŞ artıq çəkisini ortaya qoyub. Rəsmi Vaşinqton anlayır ki, proseslər belə davam etsə, İsrailə qarşı koalisiya yaranacaq. Və bu birliyə qardaş Türkiyə başçılıq edəcək. Belə senari ABŞ-ın regionla bağlı geosiyasi maraqlarına uyğun deyil. Xüsusilə, ABŞ prezidenti ilə İsrail baş naziri arasında müzakirədən sonra hərbi əməliyyatların yaxın zamanda dayandırılması ehtimalı bir az da artıb. Fikrimcə, proseslər yavaş-yavaş səngiyəcək".

**N.Miri, həmçinin rəsmi Bakının baş verənlərə münasibətindən də danışıb:** "İsraillə Fələstin arasında konflikt 70 ildən çoxdur ki, davam edir. 1948-ci ildə xüsusilə Böyük Britaniyanın dəstəyi ilə İsrail bir dövlət kimi təşəkkül tapandan sonra Fələstinin 75 faizini işğal etdi. Bu, təkzibedilməz faktdır.

Lakin Fələstinin qlobal səviyyədə müstəqil subyekt kimi tanınmaması İsrailin əlində ona qarşı tutarlı geosiyasi alətdir. Təəssüf ki, İsrail Fələstin ərazisini işğal etməklə yerli əhalinin yaşamaq hüququnu tanımır. Və bu proses hələ də davam edir.

Eyni zamanda Azərbaycanın özünün də separatizmlə bağlı problemi var. İkinci bir tərəfdən, biz Vətən savaşı dövründə İsrailin dəstəyini unutmamalıyıq. Fələstin rəhbərliyinin həmişə Ermənistanla isti münasibətdə olduğu da kimsəyə sirr deyil.

Rəsmi Bakı bütün bu məqamları nəzərə alaraq ehtiyatlı davranmalı, proseslərə həssas yanaşmalıdır. Elə etməliyik ki, nə strateji müttəfiqimiz İsraili incik salaq, nə də qardaş Türkiyənin siyasətinə zidd addım ataq.

Deməli, iki dövlət arasında seçim etmək doğru deyil. Xüsusilə, Azərbaycanın mövqeyinin təsiredici amil olmadığını nəzərə almaq lazımdır. Bizim seçimimiz nələrisə dəyişə bilsə, bəlkə də konkret bəyanat səsləndirmək olardı. İndiki halda isə yox".

**Kənan Novruzov**

## İctimai və dövlət maraqlarının müdafiəsi

# Əhali də səbirsizliklə gözləyir

## *Turizm sektoru postpandemiya dövrünə hazırlaşmalıdır*

Ərazilərimizin 20 faizi işğal altında olduğu illərdə Azərbaycan güclü iqtisadiyyata sahib ölkəyə çevrildi. Əlbəttə, bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasətin nəticəsi idi. Baxmayaraq ki, ərazilərimiz işğal altında idi, 1 milyondan artıq qaçqın və məcburi köçkünlərimiz vardı, onların sosial problemlərinin həlli vacib məsələlər idi, üstəlik, mənfur düşmən təxribatlara da ara vermir, atəşkəs rejimi mütəmadi pozulur, təmas xəttinə yaxın ərazilərdə məskunlaşmış əhali üçün real təhlükə yaranır, ölənlər, yaralananlar olurdu, cəbhədə Azərbaycan ordusu düşmən təxribatlarına cavab verməyə məcburiyyətində qalırdı.



Hətta belə çətin şəraitdə də Azərbaycan regionun güclü ölkəsinə çevrilə bildi. İcra olunan dövlət proqramları sayəsində məcburi köçkünlər üçün yeni qəsəbələr, yaşayış massivləri inşa edildi. Son 20 ildə Azərbaycan bir çox dövlətlərin qibtə edəcəyi inkişaf mərhələsinə yüksəldi. İşğal faktoru nə qədər acı, fəlakətli olsa da, dövlət başçısının yorulmaz fəaliyyəti, güclü səyləri nəticəsində ölkəmizdə yüksəlişə nail olundu. Həyatın bütün digər sahələri ilə yanaşı turizm sektoru da son illərdə özünün yüksək inkişaf mərhələsinə qədəm qoydu. Lakin 2020-ci il dünyaya koronavirus pandemiyası ilə damğa vurdu və vəziyyətin normallaşmaya doğru getdiyini söyləmək hələ də çətindir. Pandemiya hər sahədə itkilər yaratdı. Təbii ki, ən böyük itki insan tələfatıdır. Hazırda dünyada koronavirusdan dünyasını dəyişənlərin sayı 3 milyonu ötür. Azərbaycan da dünyanın bir parçası olaraq pandemiyanın zərbələrinə məruz qalıb və hazırda da karantin rejimi davam etməkdədir. Pandemiyanın sosial həyata, iqtisadiyyata vurduğu ziyanlar məlumdur. Lakin pandemiyadan ən çox zərər çəkən sahələrdən bəlkə də birincisi məhz turizmdir. Ölkələrin tələfatları azaltmaq üçün məcburiyyət qarşısında tətbiq etdiyi karantin rejimi insanların nəinki səyahət imkanlarını, hətta bir yerdən digərinə yerdəyişməsini də daraltdı. İnsanlar evlərini tərk etmədi, başqa ölkələrə səyahət, turizm bölgələrində istirahət arzuları gerçəkləşməmiş qaldı. Sanki insanlar donub qaldılar, hərəkət etməz hala gəldilər. Əlbəttə ki, belə vəziyyət turizm sektorunu çökdürmək üçün bəs edirdi. Bəzi ölkələr turizm sektoru çökməsin deyə, yoluxma sayı nisbətən azalan kimi qapılarını səyahətlər üçün açdı, lakin yoluxmanın yenidən alovlandığını görüb təkrar qapanmalara getməli oldular. Azərbaycansa yenə də dövlət başçısının uzaqgörən siyasəti nəticəsində turizm sektorunun, sahibkarlığın itkilərinin minimuma endirilməsinə nail oldu. Burada əsas məqsəd vətəndaş maraqlarının qorunması idi. Turizm sektorunda sahibkarlıq subyektləri pandemiyadan əziyyət çəkməsin deyə, dövlət proqramı çərçivəsində yardımlar gerçəkləşdirildi.

### Postpandemiya dövründə da müəyyən məhdudiyyətlər olacaq

**Bu məsələni Prezident İlham Əliyev ötən il - pandemiyanın kəskin vaxtlarında BMT-nin Ümumdünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili arasında keçirilmiş videokonfransda da qeyd etmişdi:** "Əlbəttə, turizm pandemiya şəraitində ən çox zərər çəkmiş sahələrdən biridir. Biz bunu Azərbaycanda da, bütün dünyada da müşahidə edirik. Buna görə təbiidir ki, sizin üzərinizə əlavə yük düşüb. Ona görə ki, əvvələn, pandemiya dövründə turist axını təbii olaraq çox azalıb, lakin postpandemiya dövründə də bu sahənin bərpa olunması, əlbəttə, müəyyən məhdudiyyətlərlə bağlı olacaq. Bildiyiniz kimi, son vaxtlar Azərbaycana gələnlərin sayının xeyli artması müşahidə olunurdu. Keçən il rekord göstərici qeydə alınıb - 3 milyondan çox əcnəbi vətəndaş Azərbaycana səfər edib. Faiz nisbətində desək, turist axını təqribən 15 faiz artıb. Son 4-5 ildə orta illik artım göstəricisinin 10-24 faiz həddində olmasını nəzərə alsaq, deyə bilərik ki, bu sahə çox geniş vüsət alıb. Biz şadıq ki, özəl sektor bu sahəyə fəal sərmayə qoyur, dövlət də dəstək göstərir. Pandemiya dövründə biz bu sahədə işləyən insanlara maddi dəstək göstərmişik, çünki onlar praktiki olaraq işsiz qalıblar. Sahə bərpa olunmağa başlayana qədər bu dəstək göstəriləcək". Prezidentin çıxışından da görünürdü ki, dövlət siyasəti vətəndaşların sosial tələbatlarının ödənməsinə, ictimai maraqların təmin edilməsinə yönəlib. Dövlət çalışırdı ki, pandemiya dövründə faktiki fəaliyyətsiz qalan sahələr sıradan çıxmasın, bu sektorlarda çalışanlar maddi sıxıntı yaşamasın, tələbatları gərəkən səviyyədə ödənilsin. Əsas məsələ pandemiya dövrünü başa vurmaq, postpandemiya dövrünə hazırlaşmaqdır. Turizm sektoru çökərsə, onun dirçəldilməsi çox çətin olacaq və bu, xeyli zaman aparacaq. Amma turizm sektoruna maliyyə dəstəyi göstərilsə, sektor ayaqda qalmağı bacarar və əsas gücünü postpandemiya dövründə realizə edər. İndi biz görürük ki, artıq işğaldan azad edilmiş Qarabağda turizm potensialı haqqında danışılır və bu sektorun inkişafı üçün geniş imkanlar olduğu bildirilir. Əlbəttə ki, Qarabağ hazırda bütün dünyanın diqqət mərkəzindədir. Gözlər ora dikilib. Bu, təbiidir. Xain düşmənin xarabalığa çevirdiyi əraziləri Azərbaycan dövləti və Azərbaycan insanı necə dirçəldəcək, həmin ərazilər ölkənin digər bölgələri ilə necə ayaqlaşacaq? Məsələ burasındadır ki, pandemiya hələ bitməyib. Bitsə belə, turizm sektorunda əvvəlki sərbəstliyin bərqərar olması üçün uzun müddət lazım gələcək, hətta köhnə qaydaların yenilənməsi də labüd olacaq. Vətəndaşlar, sahibkarlar bu vəziyyətdən necə az itki ilə çıxa bilər və daha yüksək qazanc əldə etmək üçün nələr etməlidirlər?

> "Pandemiya dövrü insanların maliyyə imkanlarını azaltdığından bahalı otellərə üstünlük verilməyəcək. Daha çox hostellərə tələbat yaranacaq"

### Yerli əhaliyə turizm potensialından bəhrələnmək imkanı yaradılmalıdır

**Mövzu ilə bağlı fikirlərini "Şərq"ə bildirən iqtisadçı Fuad İbrahimov işğaldan azad edilmiş ərazilərə yaxın zamanda turist axınının şahidi olacağımızı dedi:**

- İşğaldan azad edilmiş ərazilərdə nəhəng quruculuq, tikinti, abadlıq işləri aparılır. Beynəlxalq aeroportlar tikilir, yollar çəkilir. Bütün bunlar Qarabağ bölgəsinin infrastrukturunun yenidən qurulması deməkdir. Cənab Prezident də Qarabağa, Şuşaya hər səfərində işlərin gedişatı ilə şəxsən tanış olur, lazımi tapşırıqlar verir. Prezidentin də, bizim hamımızın da istəyi budur ki, Qarabağ tezliklə bərpa olunsun, məskunlaşma başlasın və həyat axara düşsün. Qarabağ bölgəsinin necə füsunkar olduğunu xatırlatmaqla kifayətlənək. Bərpa işləri başa çatar-çatmaz ora böyük insan axını - turist axını olacaq. Elə indi də Qarabağa səfərlər təşkil olunur, lakin bəllidir ki, bunlar dövlət səviyyəsində, konkret dövlət proqramı çərçivəsində reallaşır. Xarici ölkələrin nümayəndəlikləri, diplomatik korpuslar, Azərbaycanla dost, qardaş ölkələrin mədəniyyət xadimləri, media nümayəndələri hələ ki, işğaldan azad edilmiş ərazilərdə xain düşmənin hansı dağıntılar törətdiyini görürlər. Amma qısa müddət sonra artıq dünyanın hər tərəfindən Qarabağa turist səfərləri başlayacaq. Qarabağ buna hazır olmalıdır. Müasir turizmdə artıq xeyli dəyişikliklər baş verib. Pandemiya isə turizm sektoruna öz qaydalarını diktə etməyə başlayıb. Bu vəziyyət uzun müddət davam edəcək. Düşünürəm ki, pandemiya bitsə belə səyahətə çıxan insanlar səfər davranışlarına xeyli dəyişiklik edəcək. Çünki heç kim xəstələnmək, virusa yoluxmaq istəməyəcək. Nəyi müşahidə edə bilərik? Turistlər məsələn, gecələmək üçün təklif olunan məkanları incələyəcək. Həm də internet üzərindən. Pandemiya hər bir sahədə onlayn davranışlar yaradıb artıq. Baxacaqlar ki, bu məkanda təmizlik hansı səviyyədədir, sanitar-gigiyenik qaydalara necə əməl edilir, zəruri tibbi xidmət səfər paketinə daxildirmi və sair. Pandemiya dövrü insanların maliyyə imkanlarını azaltdığından bahalı otellərə üstünlük verilməyəcək. Daha çox hostellərə tələbat yaranacaq. Təbiət qoynunda, açıq havada istirahət etmək, hətta gecələmək imkanlarını da nəzərdən keçirəcəklər. Yəni biz çalışmalıyıq ki, turizm sektorunda canlanma əmələ gələn kimi bölgələrimizə turist axınını təmin edək. Bu da turizm şirkətlərinin və əlbəttə ki, Mədəniyyət Nazirliyinin, Dövlət Turizm Agentliyinin üzərinə düşəcək. Nazirlik də, turizm şirkətləri də dünya xalqlarının, əhalinin diqqətini cəlb etmək üçün geniş proqramlar tərtib etməli, ucuz və sərfəli tur-paketlər təqdim etməlidirlər. Bu yolla biz cənnət Qarabağı dünyaya nümayiş etdirə bilərik.

**F.İbrahimov Qarabağ bölgəsi ilə yanaşı digər bölgələrin də turizm potensialının geniş olduğunu xatırlatdı:**

- Düzdü, indi hamı Qarabağdan danışır, lakin unutmayaq ki, illərlə bizim digər bölgələrimiz daxili turizmin inkişafına xidmət edib. Xaçmaz, Quba-Qusar bölgəsi, Qəbələ, Qax, Zaqatala, Şəki, necə gözəl diyardır, həm havası, təbiəti, həm tarixilik baxımından, İsmayıllı, İsmayıllının Basqalı, Lahıcı, məsələn, hər il Lahıca 8-10 min turist gəlirdi, cənub zonası - Masallı, Lənkəran, Lerik, Yardımlı, sonra Şamaxı, hamısı səfalı bölgələrimizdən biridir, Gəncənin özü, Göy-gölü, Hacıkəndi ilə, hələ Naxçıvan, onun Duz dağı, Əshabi-Kəhf mağarası. Yəni Azərbaycan onsuz da başdan-ayağa cənnətdir. Gərək çalışaq ki, cənnət ölkəmiz xarici turizm hesabına həm daha çox tanınsın, həm də turizm gəlirli bir sahəyə çevrilsin. Bölgə xalqı da, vətəndaşlar da turizmdən bəhrələnsin, gəlir əldə edə bilsinlər. Bunun ən asan və uyğun üsulu yerli əhalinin evlərini turistlərə kirayə verməlidir. Məsələn, qonşu Gürcüstanda bu sektor illərdir fəaliyyətdədir və kurort zonaların sakinlərinin keçimləri demək olar turistlərin hesabınadır. Evlərini, mənzillərini uyğun hala gətirir və kirayə verirlər, yaşayışlarını təmin edirlər. İstər işğaldan azad olunmuş ərazilərdə, istərsə də digər turizm bölgələrində sahibkarlıq subyektləri ilə yanaşı yerli əhalinin də turizmdən gəlir əldə etməsinə imkan yaradılmalıdır. Bununla əhalinin gəlir mənbəyi yaranacaq və maddi baxımdan özlərini təmin edə biləcəklər.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Kreditlərini qaytara bilmirlər

*Otel sahibləri çətin durumdan çıxmaq üçün dövlətdən kömək istəyir*

Azərbaycanda otel sahibləri, otel idarəçiliyi və turizm fəaliyyəti ilə məşğul olan sahibkarlar banklardan cəlb etdikləri kreditərin qaytarılmasında çətinliklərlə üzləşiblər. Sahibkarlar bununla bağlı Prezident İlham Əliyevə müraciət ediblər. İş adamları bildirir ki, pandemiya səbəbindən turist axınının dayanması və otellərin fəaliyyətinə tətbiq edilən məhdudiyyətlər onların gəlirlərinin kəskin azalmasına səbəb olub.



"Kreditlə bağlı hansısa dəstək olacaqsa, bu, həm vətəndaşlara, həm də biznesin digər növlərinə aid edilməlidir"

Nəticədə vaxtilə biznesin inkişafı üçün banklardan götürülən kreditlərin qaytarılmasında çətinlik yaranıb.

Bununla əlaqədar olaraq iş adamları Prezident İlham Əliyevə müraciət edərək ondan bu məsələyə müdaxilə etməyi, otel sənayesi üçün güzəşt müddətini 2022-ci ilin martınadək uzatmağı xahiş ediblər.

Lakin çoxları düşünür ki, otel sahiblərinin çətin duruma düşməsində pandemiya əsas rol oynamır. Məsələn, dünya standartında bir günlük gecələmə qiyməti 40-50 manatdırsa, ölkəmizdə 120-150 manat qiymət təklif olunur. Bu baxımdan otel sahiblərinin çətin durumda olması inandırıcı deyil.

**Pandemiyadan bir çox sahənin əziyyət çəkdiyini bildirən iqtisadçı Natiq Cəfərli "Şərq"ə bildirib ki, turizm sahəsi də ən çox problem yaşayan sahələrdən biridir:** "Avropa ölkələrində, Amerikada, hətta Rusiyada orta və kiçik sahibkarların biznes kreditləri ilə bağlı yüngülləşdirici qərarlar verilib. Azərbaycanda cüzi paket açıqlandı və biznes sahəsinin demək olar ki, tamamını əhatə etmədi. Beləliklə, kredit məsələsi getdikcə böyüdü. Təbii ki, insanlarda qıcıq yaradan məsələ budur ki, vətəndaşların və biznes kreditlərinin ödənilməsinə dair ciddi problemlər var. Məsələn, pandemiya dövründə problemli kreditlərin həcmi daha da artıb. Ona görə də kreditlə bağlı hansısa dəstək olacaqsa, bu, həm vətəndaşlara, həm də biznesin digər növlərinə aid edilməlidir. Sırf turizm və ya otelçilik üçün ayrıca qərarın qəbulu doğru deyil".

Ölkəmizdəki otellərin qiymət siyasətinin baha olmasına gəlincə, iqtisadçı söyləyib ki, bu durum rəqabətsizlik mühiti ilə bağlıdır: "Yəni ölkəmizdə kiçik otelçilik, "home otel" variantları və yaxud hostellər, 2-3 ulduzlu otellər demək olar ki, yox səviyyəsindədir. Nəticədə bu şəbəkədə rəqabətli mühit olmur. Beləliklə, oteldə bir gecəlik qalmaq haqqı qonşu Gürcüstandan azı 2-3 dəfə bahadır. Həmin bahalıq da narazılığa səbəb olur. Lakin məsələnin kökündə duran məqam rəqabətsizlik mühitidir. Ümumiyyətlə, otelçilik biznesinə münasibət dəyişməlidir. Sivil ölkələrdən gələn turistlər baha yox, rahat otellərə üstünlük verirlər. Bu baxımdan Azərbaycanda bununla bağlı şəbəkə genişlənməlidir. Rəqabət olsa, qiymətlərin tənzimlənməsi də baş verəcək".

**Yeganə Bayramova**



# Şəhid bulağı olmasa da düzgün hərəkət deyil

*"Bir deputatın eyş-işrət məclisində araq içməsi utancvericidir"*

Millət vəkili Mahir Abbaszadənin sosial şəbəkələrdə yayılan fotosu cəmiyyətdə böyük səs-küyə səbəb olub. Çəkiliş üçün Laçına gedən bir qrup rəsmi şəxs orada olan zaman kef məclisi qurub. Həmin bulağın sərin sularında özləri ilə götürdükləri araqlarını soyudan və eyş-işrətlə məşğul olan şəxslərin arasında Laçın rayonunun deputatı Mahir Abbaszadə, həmçinin Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin mətbuat katibi İbrahim Mirzəyev də var.

Deputatın arağını soyutduğu bulağın həmin şəhidin məzarından 5-6 metr aralıda yerləşməsi isə vəziyyəti daha çirkinləşdirir.

Görünür, öz səfərlərindən və məclislərindən vəcdə gələn deputat və Komitə rəsmisi şəhidə, onun xatirəsinə hörmətsizlik etdiklərinin fərqinə varmayıblar.

Deputat baş verənlərlə bağlı açıqlama verərək, həmin bulağın şəhid bulağı olduğunu təkzib edib: "Bakıdan gətirdiyimiz azuqə ilə orada adi nahar süfrəsi təşkil etmişik. Hətta bu, çəkiliş başlamamış olub. Çünki uzun yol gəlmişdik. Nahar edib, sonra çəkilişə başladıq. Süfrəmizdə spirtli içki olmayıb.

Bunu oradakı keçmiş döyüşçülər, müharibə veteranları, həmçinin digər TV kanallarının əməkdaşları da təsdiq edərlər. Yaxınlıqdakı bulaq da "Humay" bulağı adlanır, şəhid bulağı yox".

**Baş verənləri "Şərq"ə dəyərləndirən Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu bildirib ki, təsadüfi seçilən adamlar, milləti təmsil etmək imkanı olmayanlar, mədəniyyəti və dünyagörüşünə görə millətin ümumi inkişafını geridə qoyan şəxslər yuxarı vəzifələrə gəlirlər:** "Bir millət vəkilinin eyş-işrət məclisinin sosial şəbəkələrdə yayılması böyük qüsurdur. Çünki məmurların və dövlət xadimlərinin vəzifəsi və davranışları millətə nümunə olmalıdır. Amma baxırıq ki, məmurlar, dövlət xadimləri və deputatlar hər zaman millətin səviyyəsindən geri qalırlar. Bir deputatın eyş-işrət məclisində araq içməsi həm spirtli içkinin təbliği, həm də milləti təmsil edən adama layiq olmayan hərəkətidir. Bulağın şəhid bulağı ya da qeyri-şəhid bulağı olmasının məsələyə aidiyyəti yoxdur. Söhbət deputatın davranışından gedir. Guya şəhid bulağı olmasa, düzgün hərəkətdir?".

**Yeganə Bayramova**

# Hər kəs güzəşt gözləməsin...

*Ali məktəblər təhsil haqları ilə yaşayırlar*



Ondan tam imtina təhsil müəssisələrinin bağlanmasına gətirib çıxarar

Pandemiya ilə əlaqəli olaraq bəzi iş yerlərinin bağlanması və insanların gəlir yerlərindən məhrum olması bir çox çətinliyi də özü ilə bərabərində gətirdi. Belə çətinliklərdən biri də işsiz qalan valideynlərin övladlarının təhsil haqlarını ödəməkdə çətinlik çəkməsi ilə bağlıdır. Belə ki, sosial təminatı aşağı olan, valideynlərinin birini, yaxud hər ikisini itirən tələbələr təhsil haqqını ödəyə bilmədikləri üçün təhsil aldığı müəssisədən çıxarılma təhlükəsi ilə üzləşmişdi. Artıq növbəti semestrə sayılı günlər qalıb. Sosial baxımdan həssas əhali qrupuna aid olan ailələri bu günləri təhsil haqlarının necə ödəyəcəkləri düşündürür.

**Məsələ ilə bağlı təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlama verib. Ekspert bildirib ki, artıq dövlət burada öz missiyasını həyata keçirib:** "İlk növbədə qeyd edim ki, 2020-ci ildə dünya, eyni zamanda Azərbaycan təhsil sistemi yeni formata keçid etdi. Bu formatda məsafədən tədrisin həyata keçirilməsinə nə biz, nə də dünyanın heç bir ölkəsi hazır idi. Bununla yanaşı, bilirik ki, məhz pandemiya səbəbindən təkcə təhsil prosesi formatı dəyişmədi, minlərlə insan iş yerini itirdi və bu da onların gəlirindən məhrum olmasına gətirib çıxardı. Bu zaman bizim hökumət yükü öz üzərinə götürdü və humanist bir addım atılaraq dövlət büdcəsindən 40 milyon manat vəsait ayrıldı. Bu vəsait hesabına dövlət pandemiyadan zərər çəkmiş ailələrdən olan tələbələrin təhsil haqqının ödənilməsi prosesini öz öhdəsinə götürdü. Qeyd edim ki, proqram çərçivəsində ümumlikdə 20 mindən çox şəxsin 2 semestrlik təhsil haqları dövlət büdcəsinin vəsaiti hesabına ödənildi ki, bu da təhsilin əlçatanlığı üçün vacib bir addım idi".

*Ekspert hesab edir ki, təhsil haqlarının tam şəkildə ödənilməsindən imtina etmək təhsil müəssisələrinin bağlanmasına gətirib çıxara bilər:* "Doğrudur, pandemiya bütün insanlara təsir göstərib. Yəni iş yerlərinin bağlanması, əmək haqlarının azalması insanların ödəmə qabiliyyətlərini azaldıb. Düzdür, müəyyən iş yerləri açılıb, amma tam olaraq proses başa çatmayıb. Qeyd edim ki, Azərbaycan Respublikasının Konstitusiyasına, eyni zamanda "Təhsil haqqında" Qanuna görə istedadlı şəxslərin təhsil haqlarının ödənilməsi dövlət üzərinə götürülən bir öhdəlikdir. Hesab edirəm ki, burada məsələ təkcə təhsil haqlarının dövlət büdcəsi hesabına ödənilməsi ilə həll olunmamalıdır. Bilirik ki, sosial həssas ailə qruplarının təhsil haqları dövlət büdcəsi tərəfindən ödənilir. İndi də belə olacaq. Fikrimcə, aztəminatlı ailələrə təhsil haqlarının ödənilməsində müəyyən güzəştlər edilməlidir. Amma bir məsələni də nəzərə alaq ki, ali təhsil müəssisələrinin özləri də əməkdaşlarının əmək haqlarını verməli və digər xərclərini ödəməlidirlər. Yəni bir tərəfdən baxsaq güzəşt edilməlidir, amma digər tərəfdən isə təhsil haqları ödənilmədikdə universitetlərin gəlirləri aşağı düşür. Nəticədə onlar da öz əməkdaşlarının maaşlarını verə bilmir. Tövsiyə olunur ki, maksimum ali təhsil haqlarının ödənilməsi ilə bağlı güzəştlər olunsun, tələbələrə vaxt verilsin və ya ən azından hissə-hissə ödəməyə imkan yaradılsın. Amma tam şəkildə ödəmədən imtina etmək, hesab edirəm ki, bu, təhsil müəssisələrinin bağlanmasına gətirib çıxara bilər. Çünki bizim universitetlər yalnız tələbələrin ödədikləri təhsil haqları ilə yaşayırlar və gəlirləri yalnız budur".

**Aynurə Pənahqızı**

# Dondurma mövsümü başladı


TƏBİİ


SAXTA

## *Ləzzəti qədər sağlamlığa təhlükəsi də var*

Havaların isinməsi ilə dondurma mövsümünə də start verilib. Xüsusilə uşaqlar dondurma yeməyə daha çox meyillidirlər. Lakin qida sektoru üzrə mütəxəssislər bildirirlər ki, dondurmanın ləzzəti qədər təhlükəsi də ola bilər.

Bu, təkcə onun soyuq olması ilə bağlı deyil, digər nüanslar da var. Məsələn, satışda olan bəzi dondurmaların üzərində nə istifadə müddəti, nə də tərkib yazılır.

Ölkəmizdə həm yerli, həm də xarici istehsal olan dondurmalar satılır. Mağazalarda daha çox Rusiya, Türkiyə və Azərbaycan istehsalı olan dondurma var. Dondurma həssas qida olduğu üçün kənar təsirlərə-istiyə, soyuğa, qoxuya daha tez məruz qalır. Buna görə də ilk növbədə dondurma alanda onun saxlanma şəraitinə və tərkibinə diqqət yetirilməlidir. Lakin kağız üzərində hansısa məlumatı qeyd olunmaması işi çətinləşdirir.

**Məhsulun üstündə istehsal tarixi, saxlanma müddəti, tərkibindəki inqridiyentlər əks olunmalıdır**

**Qida təhlükəsizliyi üzrə ekspert Elsevər Fərzəliyev "Şərq"ə bildirib ki, satışda olan qida məhsullarının hamısı rəsmi qeydiyyatdan keçməlidir:** "Yəni istehsal müəssisələri məhsulu müəyyən texniki şərtlərə və dövlət standartlarına uyğun hazırlamalıdırlar. Rəsmi sənədləşdirməyə görə, məhsul istehsal edildikdən sonra onun üzərinə yarlıq yapışdırılır. Məhsulun istehsal tarixi, saxlanma müddəti, tərkibindəki inqridiyentlər yarlıqda əks olunur. Məsələn, elə inqridiyentlər var ki, insanlarda allergik təsirə malikdir".

**E.Fərzəliyev qeyd edib ki, yarlıqda məhsulun hansı rejimdə istifadə edilməsi də qeyd olunmalıdır:** "Çünki bəzi məhsullar çalxalanmalıdır, yaxud dondurmalarda xüsusi nüanslar var: Onların donu mənfi 10 dərəcədən yüksəyə qaldırılmamalıdır. Bu zaman dondurmanın tərkibində yağ və suyun ayrılması baş verir. Yenidən dondurulanda isə içində quma bənzər buz kristalları əmələ gəlir. Nəticədə belə dondurmanın istifadə sağlamlıq üçün təhlükəli ola bilər.

Bütün bunların yaşanmaması üçün yarlıq üzərində məlumatlar verilməlidir. Əks halda həmin dondurmalar mənşəyi məlum olmayan məhsullar qrupuna aid edilir.

Bu məlumatlar varsa və məhsulun keyfiyyəti və tərkibi aşağı göstəricilərə malikdirsə, bununla Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) məşğul olur. AQTA rəsmi qurum olaraq ölkədə istehsal edilən və ölkəyə gətirilən bütün məhsulların keyfiyyət göstəricilərinə nəzarət edir".

**Yeganə Bayramova**

## FHN qanunsuz tikintilərin qarşısını alıb



**Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tikintidə təhlükəsizliyin təmin olunması istiqamətində üzərinə düşən vəzifələrin icrasını davam etdirir.**

FHN-nin saytının verdiyi məlumata görə, agentliyin mütəxəssisləri tərəfindən Qobustan şəhəri, Bakı-Şamaxı yolunun 91-ci km-də yerləşən "Koneç" adlanan ərazidə vətəndaşa məxsus torpaq sahəsində qanunsuz olaraq qeyri-yaşayış obyektinin tikintisinin aparılması faktı aşkar edilib.

Göstərilən məsələ ilə əlaqədar FHN Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi və Qobustan Rayon İcra Hakimiyyətinin həyata keçirdiyi birgə tədbirlər nəticəsində qanunsuz tikinti işləri dayandırılıb və obyekt nəzarətə götürülüb.

Bundan əlavə, Agentliyin mütəxəssisləri tərəfindən Cəlilabad şəhəri, Qurtuluş küçəsində vətəndaş tərəfindən müvafiq sənədlər olmadan qeyri-yaşayış obyektinin tikintisinin aparılması faktı aşkar edilib. Məsələ ilə bağlı Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi tərəfindən həyata keçirilən tədbirlər nəticəsində qanunsuz tikinti işləri dayandırılıb və obyekt nəzarətə götürülüb.

**Kənan**



# Həbsxanalarda texniki məktəblər açılmalıdır

*"Bunun sayəsində həmin uşaqlar orada bir çox bacarıqlara sahiblənə bilərlər"*

Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclasında Ombudsmanın sorğusu əsasında Cinayət Məcəlləsinin 85.3-cü və 85.4-cü maddələrinin Konstitusiyanın 17-ci maddəsinin V hissəsinə uyğunluğunun yoxlanılmasına dair konstitusiya işinə baxılıb.

Plenumda iş üzrə mülahizələr, ekspert rəyi və işin materialları müzakirə edilərək qərar qəbul olunub. Qərarda deyilir ki, Cinayət Məcəlləsinin 85.3-cü və 85.4-cü maddələri Konstitusiyanın 17-ci maddəsinin V hissəsi ilə ziddiyyət təşkil etmir. Belə ki, məhkəmələr ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətmiş 15 yaşınadək şəxslərə ictimai işlər cəzasının təyin olunması məsələsini həll edərkən, ilk növbədə, onların Cinayət Məcəlləsinin 88.1-ci maddəsinə uyğun olaraq cinayət məsuliyyətindən azad edilməsinə üstünlük verməlidir. Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz. Qeyd edək ki, Cinayət Məcəlləsinin 88.1-ci maddəsinə əsasən, yetkinlik yaşına çatmayan ilk dəfə böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət etdikdə, tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq etməklə onun islah olunması mümkün hesab edilərsə, həmin şəxs cinayət məsuliyyətindən azad edilə bilər. **Mövzuya münasibət bildirən hüquq müdafiəçisi Novella Cəfəroğlu "Şərq"ə açıqlamasında bu təşəbbüsü yüksək dəyərləndirdiyini ifadə edib. Onun sözlərinə görə, bu, gənclərin cəmiyyətə adaptasiya olunmasında mühüm rol oynayacaq:** "Bu, təşəbbüsün həyata keçirilməsi çox vacib idi. Yəni ölkəmizdə ilk dəfə az ağır cinayət törətmiş 15 yaşınadək şəxslərin cinayət məsuliyyətindən azad edilməsinə üstünlük verilməsi olduqca mühüm məsələdir. İstərdim ki, bununla yanaşı burada olan uşaqların təhsil almaları üçün də şərait yaradılsın. Yəni həbsxanalarda texniki məktəblərin açılması daha məqsədəuyğun olardı. Bunun sayəsində həmin uşaqlar orada bir çox bacarıqlara sahiblənə bilərlər. Bu günləri Azərbaycana ən çox santexnik işçiləri, elektriklər, qaynaqçılar lazımdır. Yəni bu istiqamətdə addımlar atılsa, təbii ki, onlar yenidən həyata qayıda bilərlər. Çünki onlar hər hansı bir sənətə sahib olmasalar yenidən küçəyə düşə bilərlər və yenidən cinayət əməlləri törədə bilərlər. Yəni sənəd məktəblərini qurtaranlar iş yerləri tapmaqda bir o qədər də əziyyət çəkməyəcəklər. Ona görə də bunların hamısı tam kompleks olmalıdır".

**Aynurə Pənahqızı**

# İrandan gətirilən qarpızlar zərərlidir

Azad İstehlakçılar İctimai Birliyinin (AİİB) sədri Eyyub Hüseynov bildirib ki, İrandan idxal edilən və hazırda yerli bazarlarda satışa çıxarılan qarpızın tərkibində nitratın miqdarı normadan təxminən iki dəfə artıqdır. O vurğulayıb ki, mövsümü olmamasına baxmayaraq satışa çıxarılan bu qarpızdan bir sutkada 2.5 kiloqram yeyən şəxslər zəhərlənərək xəstəxanalıq ola bilərlər.



*"Sağlamlığımızı qorumaq istəyiriksə, məhsulları normal yetişən vaxtından istifadə etməliyik"*

Hər bir bostan-tərəvəz məhsulunun və meyvənin mövsümü var. Qarpızın mövsümdən öncə qəbulu təhlükəli durum yarada bilər. Lakin biri deyir ki, indi qarpız yeməzlər, bu, adamı zəhərləyə bilər, bir başqası da bildirir ki, qarpıza normal qaydada gübrə veriləndə o məhsul istər istixanada yetişdirilsin, istərsə də günəş şüası altında, fərqi yoxdur, o, insan həyatı üçün qorxulu deyil. Amma fakt faktlığında qalır: Mövsümündən öncə qarpız yeyən çoxlu sayda insan zəhərlənib və bu durumla hər il qarşılaşırıq.

**Qida təhlükəsizliyi üzrə ekspert Elsevər Fərzəliyevin "Şərq"ə açıqlamasına görə, bütün məhsulların inkişaf etməsi üçün onlara müəyyən miqdarda enerji çatmalıdır:** "Vaxtsız yetişdirilən hər bir məhsul xüsusi gücləndirilmiş rejimlərdə yetişir. Bu, təbii məhsul istehsalının həyata keçirilmədiyini isbatlayır. İndi istifadə olunan qarpızlar heç vaxt normal qaydada yetişə bilməz. Həmin məhsul ya istixanalarda, ya da müəyyən sintetik-kimyəvi gübrələrin təsiri ilə əmələ gəlir. Hansı ki, o gübrələri bitkiyə verirlər və bitki qidalanır. Həmin gübrələr bitkinin meyvələrinə keçir. Sabahısı gün də o meyvələrlə qidalanarkən kimyəvi maddələr orqanizmimizə keçir və fəsadların əmələ gəlməsinə yol açır".

Ekspert vurğulayıb ki, mövsümü olan meyvələrin, giləmeyvələrin və tərəvəzlərin hamısının özünəməxsus zaman intervalında yetişməsi tövsiyə olunur: "Sağlamlığımızı qorumaq istəyiriksə, qarpızı və digər məhsulları normal yetişən vaxtından istifadə etməliyik. Eyni durum çiyələk, gilas və digər meyvələrə də aiddir. Tez yetişdirilən məhsullar orqanizmimizi zəhərləyir".

**Yeganə Bayramova**

# “Çox pis vaxtdır”

*Afət Fərmanqızı: ”Çörəyim başqa yerdən gəlsə idi, sənətdən gedərdim. Murdarlıq şou-biznesdə daha çoxdur”*



"Həmişə öndə olana arxadakılar söz atır. Kimsənin kiminsə şəxsi həyatı haqda danışmağa, ona yol göstərməyə haqqı yoxdur. Hərənin özəl həyatı və dünyaya öz baxışı var. Biz hüquqi dövlətdə yaşayırıq. Əgər biri cinayət işləyibsə, qanun mövcuddur. Hər birimiz cəzamızı alarıq. Yoxsa cəngəllik qanunları ilə danışmağa ixtiyarı çatmır. Ad çəkmirəm, ümumi danışıram".

**Bu sözləri ”Şərq”ə açıqlamasında müğənni Afət Fərmanqızı deyib. O, son zamanlar şou-biznesdə tüğyan edən qalmaqallardan danışıb. Həmçinin bu kimi məsələlərə əhəmiyyət vermədiyini söyləyib:** ”Mənə qarşı bir söz deyiləndə faktlarla cavablandırıram. Xüsusilə də şou aləmində son zamanlar qalmaqallar yaşanır. Çoxu gündəmə gəlmək istəyir. Özümdən danışacam, bir vaxt mənim başıma gəldi. ”Pəncü-şeş” mahnısını oxuduqdan sonra onlarla sənətçi əleyhimə çıxış etdi. İnsanları çaşdırdılar ki, guya, böyük qəbahət etmişəm. Nəsimi mənim üçün Allah deyil. Nəsimi, Nizami, Füzuli kimi neçə-neçə şair sadalayaram ki, hansınınsa toxunulmazlığı yoxdur. Konstitusiyanın qanunlarını nəzərə alaraq mahnı oxumuşam. ”Tupoy”, savadsız bəzi müğənnilər reklam üçün söz atdılar. Mən də cavablarını verdim. Biri də nə isə edə bilmədi. Hətta guya məni məhkəməyə verəcəkdilər. Onların içərisində xalq artisti də var idi. Niyə məni məhkəməyə vermədilər? Məhkəməyə müraciət etsə də, əsassız olduğu üçün qazana bilməzdi. Məsələn, sizə deyə bilərəm ki, qara paltar geyinməyin? Yox. Bunlar da eynisini edir. Oxumuşam, sən kimsən? Sən Nəsimisən? Əcəb etmişəm. Sonra yenə ifa etdim. Biri də səsini çıxara bilmədi. Öz keçmişlərinə baxsınlar, min hoqqadan çıxıblar, indi gəlib sənətdə, şəxsi həyatda biri-birlərinə yol göstərirlər. Ona görə də ayıblarını açıb-ağartmasınlar. Kimsə süddən çıxmış ağ qaşıq deyil. Fikrimcə, belə səviyyəsiz şəkildə qalmaqal edən müğənnilər efirə buraxılmasınlar. Burada söhbət Şəbnəmdən, Vəfadan,

"Bic doğanlar proqramda əxlaqdan danışır. Hansısa bir pis işdə, qadın alverində, narkotikdə adı hallananlar efirə çıxırlar"

Rəqsanədən getmir. Ümumi danışıram. Biz incəsənəti təbliğ edən adamlarıq. Şou-biznes, ya sənətçi, fərqi yoxdur. Yeri gəlmişkən deyim ki, indi iki qrup var: şou əhli və sənətçilər. Amma bəzi müğənnilər həm sənətdədir, həm də şouda. Aygün Kazımova onlardan biridir. Yəni efirlər öncə araşdırmalıdır. İfadəmə görə üzr istəyirəm, bic doğanlar proqramda əxlaqdan danışır. Hansısa bir pis işdə, qadın alverində, narkotikdə adı hallananlar efirə çıxırlar. Aparıcılar boşananlara ailə dəyərlərindən sual verirlər. Ayrılmaq ayıb deyil. Amma boşanana ailə münasibətindən sual ünvanlamaq olmaz. Məni də verilişə çağırırlar, deyirlər, ailədən danışın. Qayıdıram ki, vallah, cəmi 2 il ailəli olmuşam. Nə yatdım ki, nə yuxu görüm? Nə danışa bilərəm? Nümunəvi ailəsi olan, dəyərli sənətkarlarımızı dəvət edin. Məndən inciməsinlər, günah aparıcılardadır. Sənəti olmayana sənətdən sual verirlər. Şou nümayəndəsinə sual ünvanla ki, niyə açıq-saçıq geyinirsən, ya da kiminsə ərindən uşaq doğmaqla gündəmə gəlirsən? Bu, hə. Ya da bunlar üçün ayrıca bir kanal açılsın. Bəzən fikirləşirəm ki, uşaqlı ailələr televizorda belə səviyyəsiz mövzulara necə baxa bilirlər. Təbii ki, bütün kanalları nəzərdə tutmuram. Bəziləri çox sərbəstdir. Hazırda kim çox əxlaqsızlıq edirsə, o gündəmdədir. Sonra da həmin şəxs reklam olunur, varlanır və gözü ayağının altını seçmir. Çoxunu müğənni kimi görmürəm”.

**Müğənni instaqramdakı bəzi səhifələrin fəaliyyətindən narazı olduğunu xüsusi vurğulayıb:** ”Qarabağa salam yetir” mahnım var. Bir dəfə onu paylaşmırlar. Yaxşıları təbliğ edin. Kiminsə xətrinə dəymək istəmirəm. Pozğunluq niyə baş alıb gedir? Görürlər ki, belə olanda daha çox baxış gəlir. Bu da pulsuz reklam yoludur. Mən ifam ilə reklam olundum. Mahnıma görə məni söysünlər, tənqid etsinlər. Kiminsə ərindən uşaq doğmaqla gündəmə gəlmədim, kiməsə daş atmadım. Qətiyyən! Əksinə, mənə daş atdılar. Ay jurnalistlər, səhifə adminləri, siz niyə onları təbliğ edirsiniz? Təsəvvür edin ki, on dəqiqəlik müsahibə götürüb, hansısa əxlaqsızı təbliğ edirsiniz. Bu nə dərəcədə doğru olar? Əksinə, ayıbı örtmək lazımdır. Ötən dəfə bir səhifə admini var. Özü açıq-saçıq geyinən müğənni ilə işləyir, tanımıram. Proqramda Telli Borçalı ilə birgə xəngəl yediyimiz videomuz var. Bu, pis bir şey deyil. Öz çalışdığın müğənniyə xanım deyə müraciət edirsən, amma Telli Borçalı ilə mənim videomu yerləşdirib, sürətləndirib sadəcə adımızı yazırsan. İstərdim ki, belə səhifələr, umumiyyətlə sosial şəbəkələr də ləğv olunsun”.

**A.Fərmanqızı mahnıların baxış sayı ilə əlaqəli işlərdə trend məsələsinin olduğunu bildirib:** ”Guya trendə düşürlər. Pul verib mahnının PR-nı etdirir. Onunla yanaşı qalmaqal yaradır. Səhifəsinə baxırlar, o zaman avtomatik baxış artır. Müvəqqəti də olsa, gündəmdə qalırlar, sonra yaddan çıxırlar. Özlərini iş və mahnı ilə göstərməlidirlər. Çox pis vaxtdır. Çörəyim başqa yerdən gəlsə idi, sənətdən gedərdim. Murdarlıq şou-biznesdə daha çoxdur. Biri qabağa gedən kimi, onun ayağından çəkirlər. ”Pəncü-şeş” mahnısı yayımlanan zaman mənə ağıl öyrədirdilər. O zaman sakit idim. Baxdım ki, artıq müdafiə vaxtıdır. Mənə bəzi cahil sənətçilər dedi ki, filankəsin sənəti böyükdür. Onun sənəti böyükdür deyə, məni təhqir etməlidir? Yanlış düşüncədir. Bunları iki il əvvəl yaşamışam. Səhv iş görürsə, siz baxmayın, sonra düzələcək. Sosial şəbəkələrə girə bilmirik. Adiyyəti qurumlardan xahiş edirəm ki, ”Tik-Tok”u bizim ölkədən yığışdırsınlar. Ora lap əxlaqsızlıq yuvasıdır. Mən orada yoxam, həftədə bir dəfə mahnı paylaşıram, baxan olmur. Biri hoppanıb-düşsün, nə qədər izləyərlər”.

**Samirə**

## “Sizə də belə dinləyici arzu edirəm"

Damla Xudayarla videosunu paylaşdı



**Müğənni Damla Vətən müharibəsinin şəhidi Xudayar Yusifzadə ilə videosunu paylaşıb.**

”Şərq” xəbər verir ki, ifaçı şəhidimizlə eyni kadrda olduğunu yeni gördüyünü söyləyib: ”Sizdən həddsiz dərəcədə xahiş edirəm, dinləyicilərimi təhqir etməkdən vaz keçin. Bu video indi diqqətimi çəkib. Arxadakı Xudayar imiş. Məni qorumaq üçün ”maşına əyləşin” deyir. Dəyərli qardaşım, Allah şəhadətini qəbul etsin. Dinləyicilərimi təhqir edən, zövqsüzlükdə günahlandıra, ”musiqidən, kitabdan xəbəri yoxdur” deyən bəzi sənətçi dostlarıma bildirmək istərdim ki, Allahdan sizə də əfsanəyə dönmüş Xudayar, tarixə düşən Aminlər kimi dinləyicilər arzu edirəm”.

**Samirə**

## Xatirə iki ildir müalicə alır

“Hər dəfə kökələndə deyirlər ki, hamilədir”



**Müğənni Xatirə İslam ”günün sədası” proqramında qonaq olarkən ana olmağa hazırlaşması ilə bağlı xəbərlərə aydınlıq gətirib.**

”Şərq” xəbər verir ki, o, iki ildir müalicə aldığını söyləyib: ”İkinci dəfə ana olmaq üçün hormon dərmanları qəbul edirdim. Onlar da çox ziyanlıdır. Bu üzdən 20 kilo kökəldim. Hər dəfə kök görsənəndə yazırlar ki, hamilədir. Belə bir şey olsa, açıqlayaram. Lakin keyfiyyətsiz həkimlərə görə çəki aldım. Yenidən ana olmaq üçün sonuncu addımı atmışam. Hazırda da müalicə alıram”.

**Samirə**

## Qadınlar ərə boşanmaq üçün gedirlər

Elza Seyidcahan yenə həmkarlarının bostanına daş atdı



**Əməkdar artist Elza Seyidcahan növbəti açıqlaması ilə diqqət çəkib.**

O, Lamiyə Balacayevanın təqdimarında yayımlanan ”Üzə-üzə” verilişində qonaq olarkən həm həyatından, həm də sənətindən danışıb.

”Şərq” xəbər verir ki, sözügedən proqramda bunları söyləyib:

”İstərdim ki, qadınlar öz gəlinlik paltarlarını geyinsinlər, kirayə götürməsinlər. Onların öz bədəninin olmalıdır. Çünki qadının özünə məxsusdur. Mənim gəlinlik paltarım hələ də sandıqda durur. Gəlinlik xanımın bakirəliyi deməkdir. Bəzi qadınlar ərə boşanmaq üçün gedirlər. Xanımlar da var ki, ailə qurub arzu edirlər ki, daim həyat yoldaşı birgə olsunlar”.

**Samirə**

## Tolik şou əhlinə irad tutdu

“Eurovision” mahnı müsabiqəsində Azərbaycanın finala qalmasını paylaşmadılar”



**”Fikir vermişəm, ”qıjı” müğənnilər rəqqasələr, aparıcılar, tanınan simalar ölkənin hansısa uğurunu paylaşmır”.**

”Şərq” xəbər verir ki, bu sözləri instaqram səhifəsində aparıcı-prodüser Tarix Əliyev (Tolik) yazıb. O, ”Eurovision” mahnı müsabiqəsində Azərbaycanın finala qalması ilə bağlı paylaşım etməyən şou əhlinə irad bildirib: ”Çünki onlara özləri kimi ”qıjı” mahnılar, mövzular maraqlıdır. Bax, səviyyə buradan bilinir. Fikir verin”.

**Samirə**

## “Yatmazdan əvvəl fotoma baxın"

Nadir Qafarzadə fotosunu paylaşaraq bu sözləri yazıb



**Müğənni Nadir Qafarzadə növbəti instaqram paylaşımı ilə diqqət çəkib.**

*”Şərq” xəbər verir ki, o, yeni fotosunu paylaşaraq bu sözləri yazıb:*

”Yatmazdan əvvəl fotoma baxın. Görün, səhərə qədər şirin yatacaqsınız.

Mənə stimul verən, əzizlərim, əslində çox pozitiv və duyğusal insanam. Amma həyat məni tez-tez ağladır”.

**Samirə**

# Uşaq qatillər...

## Onların hər biri tarixə damğasını vurub



(Əvvəli səh: 16-da)

2. Andrey Qolden və Miçel Conson: 13 yaşında olarkən Miçel daim məktəbdə dostları tərəfindən lağa qoyulurdu. Bu durumdan təngə gələn Miçel bir gün 11 yaşlı əmisioğlu Andreydən dostlarını qorxutmaq üçün kömək istəyir. Ailə problemi yaşayan bu iki əmiuşağı ailəsinin ov tüfənglərini götürür.

Miçel isə atasının mikroavtobusunu qaçırdır. 1998-ci ilin qaranlıq bir günündə cütlük tüfəngləri ilə Arkansasdakı məktəbə gedirlər və məktəbdə yangın siqnalını işə salırlar. Bundan sonra onlar sinifdən qaçan insanlara bir-bir atəş açmağa başlayırlar. Hadisə nəticəsində Miçel dörd sinif yoldaşını və bir müəllimini öldürür.

**3. Kristina Fernandes:** 1999-cu ildə 12 yaşlı Bianella Susana təcavüzə məruz qalır. Təcavüz nəticəsində o hamilə qalır və 9 ay sonra Kristian Fernandes dünyaya gəlir. İki il sonra Kristian Fernandes Florida küçələrində çılpaq formada tapılır. Bu vaxt onun nənəsi qanunsuz dərman almaqla məşğul idi. Kristian bütün həyatı boyu cinsi və emosional istismara məruz qalır. Cəmi 8 yaşında olarkən məktəbin həyətində bir heyvanı öldürür. Məktəb onun ailəsinə 8 yaşında bir uşağın belə şeylər etməməsini və fərqli davranışlarının olması barədə xəbərdarlıq edir. Lakin ailəsi deyilənlərə əhəmiyyət vermir. 1991-ci ildə o və 2 yaşlı kiçik qardaşı ilə birlikdə anası tərəfindən tərk edilir. Bundan sonra Kristian qardaşını döyərək öldürür. Bu qətldə Kristian anasını günahlandırırdı.

**4. Lionel Teti:** 12 yaşlı Lionel Teti güləş həvəskarı idi. 1999-cu ildə bir gün televizorda Dvayne Consonun bir neçə güləş hərəkətini görür və onu 6 yaşında Tiffani Eunik üzərində sınamağa qərar verir. Lionel Tiffaniyə o qədər yüklənir ki, bu çəki 6 yaşlı Tiffanini öldürür. İki il sonra Lionel ömürlük həbs cəzasına məhkum edilir. Məhkumluğunun üçüncü ilində cəzası ləğv edilir. 2004-cü ildə ev dustağı və 10 illik həbs şərti ilə sərbəst buraxılır. Lakin onun sərbəst buraxılması uzun sürmür. Belə ki, 2006-cı ildə pizza verən adamı soyduğu üçün yenidən həbsxanaya qayıtmalı olur.

**5. Karl Nevton Mahan:** O varlı bir ailənin oğlu idi. Karl dostu ilə bir şeylər tapıb, onu sataraq pul qazanmağa çalışırdılar. 1929-cu ilin mayın 18-də Karl və 8 yaşlı dostu Kekil bir metal parçası tapırlar və satmağa qərar verirlər. Lakin sonra aralarında bir mübahisə düşür. Kekil həmin metalla Karlın üzünə vurur. Bir çox uşaq kimi valideynlərinə ağlamaq və şikayət etmək əvəzinə Karl evə qaçaraq atasının silahını götürüb geri qayıdır. Silahı Kekilin üstünə tutaraq "Səni vuracağam" deyir. O, dediyi sözünə əməl edir və tətiyi çəkir. Dostu hadisə yerindəcə ölür. Məhkəmə 6 yaşlı oğlanla nə edəcəyini bilmir və onu ailəsinə təhvil verərək islahatlar məktəbinə göndərməyə qərar verir.

**Aynurə Pənahqızı**



# Ətraf fəlakət saçır

## Koronadan ölənlər quşlar və küçə itlərinin yeminə çevrilib

(Əvvəli səh: 16-da)

**Ölkədə cəsədlərin yandırıldığı krimatoriyalara yalnız xəstəxanada vəfat etmiş COVİD-19 xəstələrinin cəsədləri qəbul edildiyindən digərləri vəfat etmiş doğmalarının, yaxınlarının cəsədlərini Qanq çayına buraxır.**

Krimatoriyaların vəfat etmiş insanların yandırılmasını artıq çatdıra bilmədiyi, cəsədləri yandırmaq üçün odun belə tapılmadığı bundan öncə də bəlli idi. Ona görə də insanlar çarəni Qanq çayına üz tutmaqda görür. Lakin cəsədlərin çaya atılması daha bir fəlakətə yol açmaqdadı. Çayda artıq 100-dən artıq cəsəd olduğu bildirilir və bunun ətrafa xəstəlik saçacağı təhlükəsi ölkə rəhbərliyini qorxuya salıb. Koronavirusdan həyatını itirmiş insanların çayda üzən cəsədləri quşlar və küçə itlərinin yeminə çevrilib. Bu durumda virusun insan cəsədlərindən heyvanlara, onlar vasitəslə də yenidən təbiətə və insanlara yoluxacağı təhlükəsi realdır. Rəsmilər cəsədləri toplamaq üçün çaya tor atıblar.

Bundan başqa, doğmalarının cəsədlərini krimatoriyalarda yandıra bilməyən əhali onları çayın sahilində torpağa basdırır. Lakin cəsədlər çox dərin basdırılmadığından təhlükə saçmaqdadır. Sosial mediada isə çayda üzən cəsədlərin də, sahilə vurmuş cəsədlərin də üzərində quşların uçuşduğu, cəsədləri diddiyi görüntüləri görənləri dəhşətə gətirir. Yetkililər hələ də bu dəhşətə çarə tapmaqda acizdir.

**Məlahət**




# "Nar"ın regionlar üzrə 4G istifadəçilərinin sayı artıb

**Mobil operatorun bölgələrə xüsusi diqqət ayırması sayəsində 2021-ci ilin birinci rübü ərzində regionlar üzrə 4G istifadəçilərinin sayında 42% yüksəliş qeydə alınıb.**

Buna "Nar"ın regionlarda baza stansiyalarının sayını artırması, paytaxtla yanaşı, bölgələrdə satış və xidmət mərkəzlərini yeniləməsi, sərfəli tarif və paketlər, eyni zamanda "Nar+" tətbiqi vasitəsilə müştəri xidmətlərinin daha rahat və əlçatan olması təsir edib.

Hər zaman müştərilərinin ehtiyaclarını qarşılamağı hədəfləyən mobil operator 2021-ci ilin ilk rübü ərzində regionlarda 30-a yaxın yeni baza stansiyası quraşdırıb. Paytaxtla yanaşı, regionlarda da şəbəkənin təkmilləşdirilməsi "Nar" abunəçilərinin kəsintisiz və sürətli internetdən istifadəsini daha da artırıb. Qeyd edək ki, "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 90%-ni əhatə edir və 8740-dan artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Mülk davası...

## Ər-arvad küçədə saçyolduya çıxdı



**Çankırı (Türkiyə) şəhərində boşanan ər-arvad arasında qarşıdurma kütləvi davaya çevrilib.**

Milli.Az haberler.com-a istinadən xəbər verir ki, davaya onların yaxınları da qoşulub.

Polis müdaxiləsi nəticəsində 3 nəfər həbs olunub. Kütləvi davanı seyr edənlər baş verənləri cib telefonlarına çəkiblər. Yaşanan hadisəyə hətta şəhər valisi Abdullah Ayaz da münasibət bildirib.

# Damarları tutulub

## "Şurik"in sevgilisi xəstəxanaya düşdü



**"Qafqaz əsiri" filminin ulduzu Natalya Varley mayın 18-də Moskvada bir klinikaya yerləşdirilib.**

lent.az bildirir ki, 73 yaşlı aktrisanın damar müayinəsinə ehtiyacı var.

Mətbuatda yayılan məlumatlara görə, Varley koronar damarların müayinəsini gözləyir və koronar angioqrafiyasından keçəcək. Bununla belə, Natalyanın dəqiq diaqnozu hələ ki məlum deyil. Onun ürəyi ilə bağlı probleminin yarandığı ehtimal edilir.

*Xatırladaq ki, aktrisa Natalya Varley "Qafqaz əsiri", yaxud "Şurikin yeni macəraları" filmindəki rolundan sonra məşhurlaşıb.*

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 883




# Heç kim saxlaya bilmədi

## Sərnişin özünü hərəkətdə olan təyyarədən yerə atıb

**ABŞ-ın Şimali Karolina əyalətindəki "Charlotte Douglas" Beynəlxalq Hava Limanında maraqlı hadisə yaşanıb.**

Malayziya vətəndaşı olan Tun Lon Sein adlı şəxs təyyarə havaya qalxmazdan öncə qəfil yerindən sıçrayaraq yan qapını açmağa çalışıb.

**"Şərq" "Cnnturk.com"a istinadən xəbər verir ki, sərnişinlərdən bəziləri onu dayandırmağa çalışıb.**

Ancaq Sein onu dayandıran sərnişinlərdən birinin qolunu dişləyib. Sonra isə başqa bir qapıya tərəf qaçıb və qapını açmağı bacardıqdan sonra təyyarə hərəkətdə olarkən aşağı tullanıb. Hadisədən sonra təyyarə təhlükəsizlik yoxlanışı üçün geri dönüb və uçuş təxirə salınıb.

**Yeganə Bayramova**

# Dəmir parçası qoluna saplandı

## 8 yaşlı uşaq xəstəxanalıq olub



**Məktəb bağçasının divarından atlanmaq istəyən 8 yaşlı uşaq xəstəxanalıq olub.**

"Şərq" Türkiyə mediasına istinadən bildirir ki, hadisə Kütahyada baş verib. Kütahya litseyinin bağça divarından aşmaq istəyərkən dəmir məhəccərin bir parçası uşağın qoluna saplanıb. Uşağın harayını eşidənlər hadisə yerinə gəlib. Köməyə gələnlər dəmiri saplandığı nahiyədən tərpətməyə ürək etməyiblər, bunun fəsadları olacağını təxmin ediblər. Hadisə yerinə təcili tibbi yardım çağırılıb. Həkim briqadası uşağı dəmir qoluna saplanmış vəziyyətdə Kütahya Sağlıq Bilimləri Universiteti E.Çələbi Tədris və Araşdırma Xəstəxanasına çatdırıb. Xəstəxanada dəmir parçası kəslib və cərrahiyyə əməliyyatı ilə uşağın qolundan çıxarılıb. 8 yaşlı T.K. bir müddət xəstəxanada müalicə alacaq.

**Məlahət**

# Dünyanın ən hündür ağacı...

## Onun yerini çox az adam bilir



**200-ə yaxın ölkə və 8 milyarddan çox insanın yaşadığı dünya maraqlı, əyləncəli və cəlbedici məlumatlarla doludur. "Şərq" "Milliyet.com"a istinadən bəzi faktları qeyd edir.**

**1.** Sinqapurda saqqızın olması və ya satılması qadağandır.

**2.** Zürafə dili ilə qulaqlarını təmizləyə bilər.

**3.** Burnumuz və qulağımız ömür boyu böyüməyə davam edərkən, gözlərimiz heç böyüməz.

**4.** Eyni yumurta əkizi olan iki qadın eyni yumurta əkizi olan iki kişi ilə evlənərsə, dünyaya gətirdikləri uşaqlar bir-biri ilə bacı, ya da qardaş olacaqlar.

**5.** Dünyanın ən hündür ağacı olan "Hyperio"nun yeri bir neçə elm adamından başqa heç kimə məlum deyil.

**6.** Yalnız dovşan və tutuquşu başlarını çevirmədən arxanı görə bilər.

**7.** Hər asqırıqda beyin hüceyrələrinin bir hissəsi ölür.

**8.** Soğan doğrayarkən saqqız çeynəsəniz gözləriniz yaşarmaz

**9.** Asqırarkən heç vaxt burun və ağzınızı eyni vaxtda örtməyin. Çünki gözləriniz çıxa bilər.

**10.** Ən geniş yola malik olan Braziliyada 160 avtomobil yan-yana gedə bilər.

**Yeganə**






# Uşaq qatillər...

## *Onların hər biri tarixə damğasını vurub*







**Dünyada "Bu cinayətləri necə işlətdi?" deyərək, təəccüblə qarşılaşdığımız bir çox qatillər var.**

Ancaq bu yazıda təəccüblənəcəyimiz ən önəmli fakt qatillərin yaşlarıdır. Yəni yaşlarıyla və işlətdikləri cinayətlərlə tarixə damğa vurmuş uşaq qatillər. Bəs görəsən, bu uşaqları qatil edən səbəblər nələr idi? Bu uşaqlar doğduqları ilk gündə qatil idilər, yoxsa cəmiyyət onları qatil etdi?

*"Şərq"olaraq onların bir neçəsini təqdim edirik:*

**1. Katerina və Kurtis:** Bəlkə də ailələri onların yanlarında olsaydı aqibətləri belə olmayacaqdı. Belə ki, bir gün 13 yaşlı Katerina özündən balaca olan qardaşı Kurtisə bir müddətdir ki, qohumları tərəfindən təcavüzə məruz qaldığını deyir. Anaları tərəfindən illər öncə tərk edilən bu iki uşaq vəziyyəti atalarına və ögey analarına danışmaq qərarına gəlirlər. Lakin nə ata, nə də ki, ögey ana uşaqların dediklərinə inanır. 1999-cu ildə uşaqlar susqunluqlarını tamamilə pozaraq atasının silahından evdə valideynlərinə atəş açırlar. Ögey anaları elə yerindəcə həyatını itirir. Bu hadisədən sonra onlara 18 il həbs cəzası kəsilir. Həyatlarının qalan hissəsini isə nəzarət altında keçirməyə məhkum edilirlər.

*(Davamı səh: 15-də)*

**Aynurə Pənahqızı**

# Ətraf fəlakət saçır

## Koronadan ölənlər quşlar və küçə itlərinin yeminə çevrilib





**Hindistanda faciənin miqyası böyüdükcə böyüməkdədir.**

Hindlilərin müqəddəs hesab etdikləri Qanq çayı ətrafa fəlakət saçır. Çaya atılmış cəsədlər quşların və küçə itlərinin yeminə çevrilib. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, Hindistandan gələn son xəbərlər tükürpədicidir. Hindistanda tən ilin oktyabr ayından peyvəndləmə kampaniyasına başlanılıb. Lakin əhalisinin sayı 1,4 milyardı aşan bir ölkədə peyvəndləmənin yoluxmanın qarşısını alacaq səviyyəyə çatması çox zordur. Ölkənin ən böyük vaksin istehsalçısı olan "Serum" İnstitutu peyvənd tədarükündə sıxıntılar yaşadığını bildirir.

*(Davamı səh: 15-də)*

**Məlahət**



# Kraliça özü 1500-dən çox ağac əkib

## II Elizabetin Platin Yubileyi ilə bağlı kampaniyaya start verilib

**Kraliça II Elizabetin Platin Yubileyini qeyd etmək üçün kampaniyaya start verilib.**

Azərtac xəbər verir ki, 2022-ci ildə Kraliça II Elizabetin taxtda olmasının 70 illik yubileyi keçiriləcək. Bu səbəblə Kraliçanın Yaşıl Çadır Mərkəzi (Green Canopy) Britaniyanın 70 fərqli meşə ərazisinə 70 ədəd yeri dəyişdirilməsi mümkün olmayan qədimi ağac əkəcək.

Uels Şahzadəsi Çarlz Vindzor qalasında monarxın 70 illik hökmranlığına hörmət əlaməti olaraq ilk yubiley ağacını əkib. O, insanları bu kampaniyaya qoşulmağa dəvət edib. Baş nazir Boris Conson da bu təşəbbüsü dəstəklədiyini açıqlayıb.

*Qeyd edək ki, Kraliça özü bu günə kimi 1500-dən çox ağac əkib.*